Azərbaycan Xalq Cümhuriyyəti - 100 il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

№ 21 (1016) 24-30 may 2018-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Bakıda rəqabətqabiliyyətli sənaye məhsulları istehsal edən müəssisə açıldı



Mayın 22-də Bakının Suraxanı rayonunda "ATEF Şirkətlər Qrupu"nun yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

İqtisadiyyat naziri Şahin Mustafayev şirkətlər qrupunun yaranması və fəaliyyəti barədə dövlətimizin başçısına məlumat vermişdir. Bildirilmişdir ki, "ATEF Şirkətlər Qrupu" innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsulları istehsal edən müəssisələrdən biridir və son illərdə ölkədə sənayenin inkişafı sahəsində görülən işləri təcəssüm etdirir.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq həyata keçirilən iqtisadi islahatlar və iqtisadiyyatın şaxələndirilməsi siyasəti nəticəsində iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılıb, yüzlərlə müasir sənaye müəssisəsi açılıb. 2017-ci ildə ötən illə müqayisədə qeyri-neft sənaye məhsulları istehsalı 3,7 faiz artıb. Bu dinamika bu ilin birinci rübündə də davam edib, ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,9 faiz artıma nail olunub.

"ATEF Şirkətlər Qrupu"nun rəhbəri Talıb Əlixanbəyov şirkətin Əmircan qəsəbəsindəki Bakı yağ transformatorları zavodu, Hövsandakı metal konstruksiya zavodu, Qaraçuxur qəsəbəsində iriqabaritli transformatorlar və elektrotexniki avadanlıqlar zavodları barədə məlumat vermişdir. Bildirilmişdir ki, dövlətin güzəştli kreditlərindən istifadə etməklə Qaraçuxur qəsəbəsində inşa olunan iriqabaritli transformatorlar zavodu 2016-cı ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib, həmin ərazidə yüksək gərginlikli avadanlıqlar zavodunun təməli qoyulub.

Ümumi investisiya dəyəri 29,7 milyon manat olan zavodun yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Bundan başqa, müəssisəyə nazirlik tərəfindən investisiya təşviqi sənədi verilib ki, nəticədə 4,2 milyon manat vəsaitə qənaət olunaraq investisiya kimi layihənin icrasına yönəldilib. Müasir texnologiyalar əsasında yaradılan bu zavod inkişaf etmiş ölkələrin istehsalı olan avadanlıqlarla təchiz edilib. Eyni zamanda, "ATEF Şirkətlər Qrupu"nun ümumi dəyəri 20 milyon manat olan iriqabaritli transformatorlar və elektrotexniki avadanlıqlar və metal-konstruksiyalar zavodlarının yaradılmasına verilən 5 milyon manat güzəştli kredit vəsaitindən istifadə olunub və tam geri qaytarılıb.

Prezident İlham Əliyev yüksək gərginlikli avadanlıqlar zavodunu işə salmışdır.

Bildirilmişdir ki, ümumi sahəsi 18 min kvadratmetr olan zavod 7 istehsal sahəsindən - bərk izolyasiya, kabel və mis anod istehsalı, əritmə və ekstruziya, mexaniki emal, yığma və sınaq sahələrindən ibarətdir. Zavodda illik 5 min 300 ədəd müxtəlif növ elektrotexniki avadanlıqların, o cümlədən güc transformatorları üçün izolyasiya detalları, yüksəkgərginlikli vakuum və eleqaz tipli açarlar, ayırıcılar, torpaqlayıcılar, ölçü transformatorları, kabeller və transformator buraxılışında istifadə olunan digər hissələrin istehsalı mümkündür. Qeyd olundu ki, bu məhsulların istehsalı üçün tələb olunan xammal və köməkçi detallar əvvəllər xarici bazarlardan alınırdı. Zavodun sınaq laboratoriyası da müasir səviyyədədir. Burada yerli mütəxəssislər beynəlxalq təcrübəyə əsaslanan intellektual biliklərdən istifadə edirlər. Yüksək gərginlikli avadanlıqlar zavodunun fəaliyyətə başlaması ilə transformator, yarımstansiya və digər elektrik avadanlıqlarının istehsalında yerli materiallardan istifadə olunması nəticəsində lokalizasiya səviyyəsi 70-90 faizə çatacaq ki, bu da buraxılan məhsulların maya dəyərinin aşağı düşməsinə, idxaldan asılılığın və ölkədən valyuta axınının qarşısının alınmasına səbəb olacaq. Zavodda 310 yeni iş yeri açılıb.

Diqqətə çatdırılmışdır ki, "ATEF Şirkətlər Qrupu" 2018-ci ildə 160 milyon dollar, o cümlədən ölkə daxilində 5 milyon dollar dəyərində, xarici ölkələrdə isə 155 milyon dollar dəyərində layihələrin həyata keçirilməsini qarşıya məqsəd qoyub. Xarici ölkələrdə layihələrin həyata keçirilməsi zamanı şirkətin istehsal etdiyi 95 milyon dollar dəyərində məhsulların ixracı nəzərdə tutulur. Hazırda şirkətlər qrupu xarici ölkələrdə nəzərdə tutulan bu layihələr üzrə dəyəri 100 milyon dolladək olan tenderlərdə iştirak edir.

# "Serbiya bizim üçün dost ölkədir və əminəm ki, bu dostluq əlaqələri bundan sonra da davam etdiriləcək"

Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mayın 21-də Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə təkbətək görüşü olub.

Görüşdə Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanmışdır. Ölkələrimiz arasındakı əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirilmişdir.

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Mayın 21-də təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Prezidentlər görüşdə çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham Əliyev əminliyini bildirmişdir ki, səfər çox uğurlu keçəcək və Serbiya-Azərbaycan əlaqələrinin inkişafı üçün böyük dəstək olacaq. O, demişdir: "Bizim əlaqələrimiz çox uğurla inkişaf edir. Biz dostuq, tərəfdaşıq, strateji tərəfdaşıq. Son illər ərzində əldə edilmiş uğurlar deməyə əsas verir ki, Serbiya-Azərbaycan əlaqələri bundan sonra da uğurla inkişaf edəcəkdir. Biz beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik, iqtisadi sahədə əməkdaşlıq aparılır. Əminəm ki, bu gün aparılan danışıqlar nəticəsində bu sahəyə də yeni təkan veriləcəkdir. Humanitar sahədə çox gözəl əməkdaşlıq var.

Əlbəttə, bölgədə gedən proseslərlə bağlı biz bu gün Sizinlə fikir mübadiləsi apardıq. Əminəm ki, belə məsləhətləşmələrin çox böyük əhəmiyyəti var. Biz gələcəkdə energetika, nəqliyyat sahələrində daha fəal əməkdaşlıq edə bilərik. Bu məsələlərlə bağlı bizim fikirlərimiz var. Belə olan halda bizim münasibətlərimiz yeni mərhələyə, yeni pilləyə qalxacaqdır".

* * * *

Mayın 21-də geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

* * * *

Mayın 21-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan Prezidenti bəyanatla çıxış etmişdir. O, demişdir:

"Biz strateji tərəfdaşıq və bu gün imzalanan sənədlər arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı imzalanmışdır. Bu, çox geniş və əhəmiyyətli sənəddir. Bu sənəddə bizim gələcək əməkdaşlığımızla bağlı bütün önəmli məsələlər öz əksini tapmışdır.

Biz beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birimizi

PAŞA Bank

28 May - Respublika bayramı münasibəti ilə müstəqil Azərbaycan xalqını təbrik edirik!



dəstəkləyirik. Bütün önəmli məsələlərdə bir-birimizə dəstək göstəririk. Ölkələrimizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı məsələlərdə bütün beynəlxalq təşkilatlarda bir-birimizi daim dəstəkləyirik. Üzləşdiyimiz münaqişələr beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkələrimizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində öz həllini tapmalıdır.

Bu gün müzakirə olunan məsələlər arasında bizim iqtisadi əməkdaşlıq məsələləri də geniş yer almışdır. Biz bu istiqamətdə atılan addımları yüksək qiymətləndiririk. Energetika sahəsində əməkdaşlıq üçün perspektivlər ümidvericidir. Bu məsələ imzalanan Fəaliyyət Planında öz əksini tapmışdır. Azərbaycan nəhəng enerji layihələrinin təşəbbüskarıdır və fəal iştirakçısıdır. Onların arasında "Cənub Qaz Dəhlizi" layihəsi xüsusi yer tutur. Gələn günlər ərzində biz artıq "Şahdəniz-2" layihəsinin başa çatmasını qeyd edəcəyik. Gələn ay TANAP layihəsi istismara verilməlidir. Beləliklə, Cənub Qaz Dəhlizinin əsas layihələri artıq başa çatmış olacaqdır. Bu, enerji təhlükəsizliyi məsələlərinə Azərbaycanın növbəti töhfəsidir. Bu nəhəng enerji layihəsi geniş beynəlxalq əməkdaşlıq məsələlərinin həllinə də öz müsbət təsirini göstərmişdir. Hazırda bizim regionumuzda enerji sahəsində əməkdaşlıq yeni səviyyəyə qalxır.

Ötən ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi ilə bağlı Bakıda mərasim keçirilmişdir. Bu yol da çox böyük əhəmiyyətə malikdir. Bu yolun fəaliyyətə başlaması nəticəsində Asiya ilə Avropa Azərbaycan və digər ölkələr üzərindən bir-biri ilə bağlanır. Bu, Asiyadan Avropaya və əks istiqamətə ən qısa yoldur. Yüklər artıq bu yol vasitəsilə daşınır və yüklərin həcmi getdikcə daha da artacaq. Əlbəttə ki, biz Serbiyanı bu dəmir yolunun fəal iştirakçısı kimi görürük. Hesab edirəm, bizim müvafiq qurumlarımız bu məsələ ilə bağlı artıq danışıqlara başlaya bilərlər ki, biz yükdaşımalarını artıra bilək. Beləliklə, ölkəmizin təşəbbüsü ilə həyata keçirilən enerji və nəqliyyat layihələri geniş əməkdaşlıq üçün yeni imkanlar açır. Bu, turizmin inkişafına təkan verəcək, qarşılıqlı ticarət dövriyyəsini artıracaq və beləliklə, bölgəmizdə, Avrasiya məkanında sabitliyi möhkəmləndirəcək, təhlükəsizliyi təmin edəcəkdir.

Hesab edirəm ki, turizm sahəsinin qarşılıqlı şəkildə inkişaf etdirilməsi həm ölkələrimizə gəlir gətirəcək, həm də insanlar bir-birini daha yaxından tanıyacaqlar, dost olacaqlar, necə ki, bizim ölkələr. Bizim ölkələrimiz dost ölkələrdir, qeyd etdiyim kimi, strateji tərəfdaşlardır. Əminəm, səfərdən sonra əlaqələrimizə yeni dinamika, yeni təkan veriləcəkdir ki, Serbiya ilə Azərbaycan daim bir-birini dəstəkləyən, bir-birinə kömək edən ölkələr kimi fəaliyyət göstərsinlər".

# Milli Məclisin komitə iclasında 2017-ci ilin dövlət büdcəsinin icrası müzakirə olunub

Mayın 22-də Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.

İclasda Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası müzakirə olunub. Komitənin sədri Ziyad Səmədzadə bildirib ki, parlament dövlət büdcəsi üzərində nəzarəti təşkil edir və hər il icra haqqında məsələni müzakirə edir. 2017-ci il dövlət büdcəsinin icrası ilə tanışlıq sübut edir ki, iqtisadiyyatımızda müsbət meyillər güclənir. Sosial proqramların icrasında maliyyə problemi olmayıb. Bu da 2018-ci il dövlət büdcəsinin daha yüksək göstəricilərlə təmin olunmasına şərait yaradıb. Azərbaycan iqtisadiyyatında müsbət tendensiyalar güclənir. 2017-ci il ərzində dövlət büdcəsinin bütün parametrlərinin icrası mümkün olub, sosial proqramlar həyata keçirilib.

Qeyd olunub ki, "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi və müvafiq hesabat "Büdcə sistemi haqqında" Qanunun müvafiq maddəsinə uyğun olaraq hazırlanıb. Hesabat Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulan xərclərin icra vəziyyəti ilə bağlı göstəricilərlə yanaşı, dövlət borcları, il ərzində götürülən dövlət borcuna xidmət, Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondunun, dövlət büdcəsinin ehtiyat fondunun vəsaitindən istifadə haqqında və digər zəruri məlumatları özündə əks etdirir.

İclasda iştirak edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bildirib ki, 2017-ci ildə Azərbaycanın dövlət büdcəsinin gəlirlərində 15 mədaxil mənbəyi üzrə proqnoz tam icra olunub. Yeddi mədaxil mənbəyi üzrə isə proqnoza əməl edilməyib. Ötən il büdcə gəlirlərinin 46,8 faizi ilin birinci yarısında təmin olunub. Gəlirlər üzrə ən yüksək icra göstəricisi yol vergisi üzrə (151 faiz), ən aşağı icra göstəricisi isə səhmləri dövlətə məxsus olan müəssisələr üzrə (42,9 faiz) qeydə alınıb. Dividend ödənişlərinin az olması büdcə ilə bağlı vergi siyasətinin sərtləşdirilməsini tələb edir.

Maliyyə nazirinin müavini Azər Bayramov bildirib ki, makroiqtisadi birliyin təmin edilməsi istiqamətindəki islahatlar nəticəsində makroiqtisadi sabitlik təmin olunub. Ölkədə müsbət iqtisadi artım qeydə alınıb, iqtisadiyyata əlavə xarici valyuta daxil olub. Borc öhdəliklərinin maliyyə təminatı təmin edilib. Ötən il ərzində xarici ticarət illik müqayisədə 12,3 faiz, əmtəə ixracı 18,11 faiz, qeyri-neft əmtəə ixracı isə 24,4 faiz artıb. Ölkənin strateji valyuta ehtiyatları 4 milyard dollar artaraq ilin sonuna 41 milyard dollar səviyyəsini keçib. 2017-ci ildə icmal büdcənin gəlirləri 24 milyard manat və ya 104,8 faiz, xərcləri 25 milyard manat və ya 82,4 faiz səviyyəsində icra olunub. İcmal büdcə kəsiri 1,1 milyard təşkil edib ki, bu da proqnoza nisbətən 9,5 faiz bəndi azalaraq cəmi 1,6 faiz təşkil edib. Dövlət büdcəsinin mədaxili 16 milyard 517 milyon manat və ya 98,5 faiz icra olunub. Dövlət büdcəsinin transfert nəzərə alınmadan gəlirləri 10 milyard 417 milyon təşkil edib. Bu da 2016-cı illə müqayisədə 526 milyon manat və ya 5,3 faiz çoxdur. Büdcə daxilolmalarının 8,633 milyard manatı qeyri-neft sektoru hesabına təmin olunub. Bu da 2016-cı ilə nisbətən 352 milyon manat və ya 4,3 faiz çoxdur. Qeyri-neft sektorundan daxilolmaların xüsusi çəkisi 2016-cı illə müqayisədə 5 faiz bəndi artaraq 52,3 faiz təşkil edib. Dövlət Neft Fondundan 2017-ci ildə 6,100 milyard manat vəsait transfert olunub ki, bu da illik müqayisədə 19,9 faiz azdır. 2017-ci ildə Azərbaycan Mərkəzi Bankının mənfəətindən 250 milyon manat dövlət büdcəsinə ödənilib. 2017-ci ildə dövlət büdcəsinin xərcləri proqnoza nisbətən 98,1 faiz və ya 17 milyard 595 milyon manat səviyyəsində icra olunub. Xərclərin 62 faizi cari xərclərdir.



İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirib ki, iqtisadiyyatın qeyri-neft sektorunda istehsal edilmiş əlavə dəyər ötən ilə nisbətən 2,7 faiz artıb, qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi 62,8 faiz təşkil edib. Neft-qaz sektorunun ümumi daxili məhsulda payı 2016-cı ilə nisbətən 3,4 faiz-bənd artaraq 37,2 faiz olub. 2017-ci ildə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri üzrə icra 359,2 milyon manat təşkil edib.

Deputatlar Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası barədə fikirlərini səsləndiriblər.

# Ələtdə "Azərbaycan-Çin Azad İqtisadi Sənaye Şəhərciyi" yaradılacaq



İqtisadiyyat naziri Şahin Mustafayev Çinin İxracın və Kreditlərin Sığortası Korporasiyasının (SİNOSURE) idarə heyətinin sədri Vanq Yini qəbul edib.

İqtisadiyyat Nazirliyindən Trend-ə verilən məlumata görə, görüşdə Ş.Mustafayev Azərbaycan və Çin arasında siyasi-iqtisadi əməkdaşlığın uğurla inkişaf etdiyini, rəsmi və işgüzar səfərlərin ölkələrimiz arasında əlaqələrin genişlənməsində önəmli rol oynadığını diqqətə çatdırıb. Vurğulanıb ki, Azərbaycan Prezidentinin 2015-ci ildə Çinə səfəri zamanı imzalanmış sənədlər ölkələrimiz arasında əlaqələrin inkişafında xüsusi əhəmiyyətə malikdir.

Ş.Mustafayev qeyd edib ki, 2018-ci ilin fevral ayında Azərbaycan nümayəndə heyətinin Çinə səfəri çərçivəsində Pekində "Kəmər və Yol" təşəbbüsünün reallaşmasında "Trans-Xəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhlizinin rolu"na həsr olunmuş Beynəlxalq Konfrans və Çin rəsmiləri ilə müxtəlif görüşlər təşkil olunub.

Bildirilib ki, 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 1,3 mlrd. dollar olub. Hazırda Pekində Azərbaycanın Ticarət Nümayəndəliyi fəaliyyət göstərir, Şanxayda Azərbaycan Ticarət Evinin, Pekində və Şanxayda Azərbaycan Şərab Evinin açılması nəzərdə tutulur. Bütün bunlar ticarət əlaqələrinin daha da genişlənməsinə töhfə verəcəkdir.

Çinlə tranzit daşımaları, logistika, ticarət, investisiya, turizm və humanitar sahələrdə əlaqələrin inkişaf etdiyini qeyd edən iqtsadiyyat naziri Azərbaycan-Çin iqtisadi əməkdaşlığının genişləndirilməsi imkanlarını diqqətə çatdırıb. Görüşdə, həmçinin Ələtdə yaradılması nəzərdə tutulan "Azərbaycan Respublikası-Çin Azad İqtisadi Sənaye Şəhərciyi" barədə məlumat verilib.

Nazir Azərbaycan və Çin şirkətləri arasında birgə həyata keçirilməsi nəzərdə tutulan metallurgiya, kənd təsərrüfatı, neft-kimya sahələri üzrə layihələrin icrasının ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafında əhəmiyyətli olacağını qeyd edib.

Çinin İxracın və Kreditlərin Sığortası Korporasiyasının (SİNOSURE) fəaliyyəti barədə məlumat verən idarə heyətinin sədri Vanq Yi Azərbaycanda həyata keçirilən layihələrin sığortalanmasında Korporasiyanın maraqlı olduğunu vurğulayıb. Bildirilib ki, xarici ticarət və iqtisadi əməkdaşlığın təşviqi məqsədilə kredit və investisiyaların sığortalanması sahəsində böyük təcrübəsi olan SİNOSURE Korporasiyası tərəfindən ümumilikdə 3,5 trilyon dollar məbləğində ixrac vəsaiti sığortalanıb. Korporasiya 250-dən çox bankla əməkdaşlıq edir.

Görüşdə SİNOSURE Korporasiyasının Azərbaycanın aidiyyəti qurumları ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğu ifadə olunub və bu sahədə əlaqələrin qurulması imkanları müzakirə edilib.

# "TANAP" qaz boru xəttinin keçdiyi şəhərlərə təcili tibbi yardım maşınları hədiyyə edilir




Türkiyənin Səhiyyə Nazirliyi ilə bu ölkədə fəaliyyət göstərən "TANAP" A.Ş. arasında bağlanmış müqaviləyə əsasən, TANAP xəttinin keçdiyi şəhərlərə təcili tibbi yardım maşınlarının hədiyyə edilməsi layihəsinin icrasına başlanılıb.

"TANAP" A.Ş.-dan daxil olan məlumatlara görə, qeyd olunan anlaşmaya əsasən Ardahan, Qars, Ərzurum, Ərzincan, Sivas, Bayburt, Gümüşhane, Kırıkkale, Kırşehir və Yozgat şəhərlərinə, ümumilikdə, 13 ədəd təcili tibbi yardım maşını veriləcək. Artıq bu maşınların 11-i ünvanına çatdırılıb. Qalan 2 maşın isə iyun ayında təhvil veriləcək.

Qeyd edək ki, iki qurum arasında anlaşma cari ilin 11 aprel tarixində Türkiyədə fəaliyyət göstərən İctimai və Ekoloji Sərmayə Proqramları əsasında imzalanıb.

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# 28 MAY – RESPUBLİKA GÜNÜ

28 may (1918) - Azərbaycan Respublikasının ən mühüm dövlət və ümumxalq bayramlarından biri - Respublika günü. Müsəlman şərqində ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı və Azərbaycan dövlətçiliyinin bərpa edildiyi gün. 1918-ci ildə Azərbaycan Milli Şurasının iclasında 6 bənddən ibarət Azərbaycanın İstiqlal bəyannaməsi qəbul olundu. Bəyannamədə müstəqil Azərbaycan dövlətinin idarə formasının xalq cümhuriyyəti olduğu, bütün millətlər və dövlətlərlə yaxın münasibətlər qurmaq əzmi, millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən, bütün vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi, xalq cümhuriyyəti ərazisi daxilində yaşayan millətlərin sərbəst inkişaflarına geniş meydan verilməsi təntənə ilə vəd edilirdi. Bu tarixi sənədə əsasən, Müəssislər Məclisi çağırılana qədər Milli Şura ölkədə qanunverici, müvəqqəti hökumət isə icraedici orqan hesab olunmuşdur.

Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk konstitusiya aktı - İstiqlal bəyannaməsinin qəbulu ilə Azərbaycan dövlətçiliyi dünyəvi xalq cümhuriyyəti formasında elan olundu. Milli Şuranın elə həmin iclasında bitərəf Fətəli xan Xoyskinin başçılığı ilə Xosrov Paşa bəy Sultanov, Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Əkbər ağa Şeyxülislamov, Xudadat bəy Məlik-Aslanov, Camo bəy Hacınskidən ibarət ilk Azərbaycan hökuməti yaradıldı.

Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, hökuməti, ordusu, bayrağı və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində mühüm rol oynamışdır.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı (1992) ilə 28 may – Respublika günü hər il ümumxalq bayramı kimi dövlət səviyyəsində qeyd olunur.

# İSTİQLAL BƏYANNAMƏSİ

Azərbaycan Milli Şurasının qərarına əsasən, Azərbaycanın istiqlaliyyətini rəsmən elan edən sənəd (əqdnamə). İstiqlal bəyannaməsi Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də Tiflisdə, keçmiş Qafqaz canişininin iqamətgahında keçirilən iclasında qəbul olunmuşdur. İclasa Həsən bəy Ağayev sədrlik etmişdir. Altı bənddən ibarət olan bəyannaməni (bu sənədi o dövrdə əqdnamə və ya misaqi-milli də adlandırırdılar) Azərbaycan Milli Şurasının aşağıdakı üzvləri imzalamışlar: Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Camo bəy Hacınski, Şəfı bəy Rüstəmbəyli, Nəriman bəy Nərimanbəyov, Cavad Məlik-Yeqanov, Mustafa Mahmudov.

Azərbaycanın istiqlaliyyətinin elan olunması və Azərbaycan Xalq Cümhuriyyətinin yaranması barədə Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin adından mayın 30-da radioteleqrafla dünyanın əksər siyasi mərkəzlərinə - London, Paris, Vaşinqton, İstanbul, Berlin, Madrid, Moskva, Roma, Vyana, Buxarest, Tokio, Haaqa, Kopenhagen, Stokholm və s. yerlərə rəsmi məlumat verilmişdir.



İstiqlal bəyannaməsinin elan olunması Azərbaycan xalqının taleyində misilsiz tarixi hadisə idi. M.Ə.Rəsulzadə sonralar bu barədə belə yazmışdır: "28 mayıs 1918-ci il bəyannaməsini nəşr etməklə Azərbaycan şurayi-milliyəsi, sözün siyasi mənası ilə, bir Azərbaycan millətinin varlığını təsbit etmişdir. Beylə ki, Azərbaycan kəlməsi sadə coğrafi, etnoqrafi və linqvistik bir kəlmə olmaqdan çıxaraq, siyasi bir aləm olmuşdur".




# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

RƏSULZADƏ Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu (31.1.1884, Bakı, Novxanı k. - 6.3.1955, Türkiyə, Ankara) - Azərbaycanın görkəmli siyasi və dövlət xadimi; Azərbaycan Xalq Cümhuriyyətinin (1918-20) banilərindən biri; Azərbaycan Milli Şurasının sədri (1918, 27 may - 1918, 17 iyun; 1918, 16 noyabr – 7 dekabr), Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində "Müsavat" və bitərəflər fraksiyasının sədri; jurnalist, publisist. İlk təhsilini Sultan Məcid Qənizadənin 2 saylı rus-tatar (rus-Azərbaycan) məktəbində almış, Bakı texniki məktəbini bitirmişdir. Gənc yaşlarından inqilabi hərəkata qoşulmuş, "Müsəlman Gənclik Təşkilatı" adlı gənc azərbaycanlı inqilabçılar dərnəyi yaratmış və ona başçılıq etmişdir (1902-03). Təşkilat mətbəə üsulu ilə intibahnamələr çap edib, əhali arasında yaymışdır. 1904-cü ildə o, Rusiya Sosial Demokrat Fəhlə Partiyası Bakı Komitəsi nəzdində "Müsəlman sosial-demokrat "Hümmət" qrupunun yaradılmasında iştirak etmişdir. Bu dövrdə mətbuatda ("Şərqi-Rus", "Hümmət", "Təkamül" və s.) dərc olunmuş yazılarında xalqa söz, mətbuat, vicdan, cəmiyyət və ittifaqlar yaratmaq azadlıqları verilməsi, vətəndaşların əmlakının və canlarının toxunulmazlığının təmin olunması tələbləri ilə çıxış edir, xalqı maariflənməyə çağırır, Rusiyanın Azərbaycanda yeritdiyi milli qırğın siyasətini kəskin tənqid edirdi. 1905-07-ci illər rus inqilabının gedişində və bundan sonra Azərbaycanda yaranan milli oyanış, Əlimərdan bəy Topçubaşov, Əhməd Ağaoğlu, Əli bəy Hüseynzadə, Həsən bəy Zərdabi və b.-nın Çar Rusiyasının milli ayrı-seçkilik siyasətinə qarşı mübarizəsi, getdikcə genişlənməkdə olan "türkləşmək, islamlaşmaq və müasirləşmək" ("türk qanlı, islam imanlı, Avropa qiyafətli") məfkurəsi Rəsulzadənin milli-siyasi görüşlərinin formalaşmasına güclü təsir göstərmişdir.

1906-07-ci illərdə "Təkamül"də, həmçinin başqa qəzetlərdə millətlərə, tayfalara, siniflərə, insanlara (fərdlərə) hüquq bərabərliyi və azadlıq tələb edən yazılarla çıxış etmiş və zaman keçdikcə bu siyasi tələbləri "insanlara hürriyyət, millətlərə istiqlal!" çağırışı kimi formalaşdırmışdır. 1905-07-ci illər inqilabının məğlub olmasından sonra Rusiyada təqiblərin artdığı şəraitdə Rəsulzadə İrana mühacirət etdi. Rəsulzadə 1908-11-ci illər İran inqilabında, Cənubi Azərbaycanda milli-demokratik oyanışda fəal iştirak etmişdir.

Rəsulzadə 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verilmiş əfv-ümumidən sonra Bakıya dönür, "Müsavat" partiyasının rəhbərliyinə keçir və milli azadlıq mübarizəsində daha fəal iştirak edir. 1915-ci ildə "Açıq söz" qəzetini nəşr edir. Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparır, "Dirilik" (1914-16) jurnalında "Milli dirilik" başlığı ilə silsilə məqalələr dərc etdirir, millətin tərifində dini birliyi deyil, dil və mədəniyyət birliyini önə çəkir, milli istiqlal ideyalarını geniş təbliğ edir. Onun rəhbərlik etdiyi "Müsavat" partiyası milli azadlıq mübarizəsinin önünə keçir. Rusiyada Fevral inqilabının (1917) qələbəsindən sonra milli əsarət altında olan xalqlara, o cümlədən Azərbaycan xalqına yeni yaradılacaq demokratik Rusiyada "Milli-məhəlli (ərazi) muxtariyyət" verilməsi uğrunda mübarizə aparır. Moskva qurultayında onun Azərbaycan dilində etdiyi çıxışda irəli sürülən "Milli-məhəlli (ərazi) muxtariyyət" proqramı Əhməd Salikovun "milli-mədəni muxtariyyət" proqramından fərqli olaraq, böyük səs üstünlüyü ilə (446:291) qəbul olunur. Nəticədə, Rusiyanın gələcək dövlət idarəçiliyi formasını müəyyən edəcək Müəssislər Məclisinə Azərbaycanla yanaşı, Türküstandan da deputat seçildi. 1917-ci ilin iyununda "Müsavat"la Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi "Türk Ədəmi-Mərkəziyyət" Partiyası birləşdi. Rəsulzadə birləşmiş "Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat"ın sədri oldu. 1917-ci ilin oktyabrında "Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat"ın 1-ci qurultayında M.Ə.Rəsulzadə partiyanın Mərkəzi Komitəsinin sədri seçildi. O, qurultaydakı çıxışında partiyanın mübarizə istiqamətini müəyyən edərək bildirdi: "Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal". Lakin Oktyabr çevrilişindən (1917) sonra Rusiyada bolşevik irticası və yeni milli əsarət dövrü başlandı. Silah gücünə keçmiş Rusiya imperiyasının sərhədlərini bərpa etmək siyasəti yeridildi. Bakıda və onun ətraflarında hakimiyyəti ələ keçirən Şaumyanın bolşevik-daşnak güruhu Azərbaycana "muxtariyyət" əvəzinə "məzarıstan" vəd etdi və 1918-ci ilin martında Bakıda və bunun ardınca ölkənin digər bölgələrində Azərbaycan xalqına qarşı kütləvi soyqırımları törədildi. Bu zaman Rəsulzadə Qafqazın Rusiyadan ayrılaraq müstəqil konfederasiya dövləti yaratması və Türkiyə ilə sülh danışıqlarına girməsi uğrunda mübarizəyə başlayır və Tiflisdə Zaqafqaziya fraksiyası rəyasət heyətinin sədri kimi çıxışlar edir. Zaqafqaziya seymi dağıldıqda Rəsulzadə Batum konfransında iştirak etdiyinə görə gizli səsvermə nəticəsində qiyabi olaraq Azərbaycan Milli Şurasının sədri seçilir (1918, 27 may). Milli Şura Azərbaycanı müstəqil dövlət elan edir və M.Ə.Rəsulzadə Azərbaycan Milli Şurasının sədri kimi xarici işlər naziri M.Hacınski ilə birlikdə Osmanlı dövləti ilə Batum müqaviləsini imzalayır.

O, 1918-ci ilin iyununda AXC-nin İstanbul beynəlxalq konfransına göndərilən səlahiyyətli nümayəndə heyətinin sədri olmuşdur. 1918-ci il noyabrın 16-da Azərbaycan Milli Şurasının fəaliyyəti bərpa olunduqdan sonra onun sədri kimi AXC Parlamentinin formalaşdırılmasında mühüm rol oynamışdır.



Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk iclasının açılışında M.Ə.Rəsulzadənin çıxışı. 1918, 7 dekabr

Parlamentin təntənəli açılışında (1918, 7 dekabr) parlaq nitq söyləmiş və sonra "Müsavat" partiyası adından gənc Cümhuriyyətin dövlət quruluşu, daxili və xarici siyasətinin əsas prinsipləri barədə bəyannamə ilə çıxış etmişdir. Onun "... müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı-əhrarnəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtiraz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir" sözləri parlament üzvlərinin ayaq üstə sürəkli alqışları ilə qarşılanmışdı.

M.Ə.Rəsulzadə parlamentdə Bakı Dövlət Universitetinin açılması ətrafında gedən müzakirələrdə də qətiyyətli çıxışlar etmişdi. M.Ə.Rəsulzadə universitet fəaliyyətə başladıqdan sonra tarix-filologiya fakültəsində Osmanlı ədəbiyyatı tarixindən dərs demişdir.

Rəsulzadə "Müsavat" partiyasının 1919-cu ilin dekabrında keçirilmiş 2-ci qurultayının rəyasət heyətinin sədri seçilmiş, partiyanın Mərkəzi Komitəsinin və parlament fraksiyasının fəaliyyəti haqqında hesabat məruzəsi ilə çıxış etmişdir. Yenidən partiyanın Mərkəzi Komitəsinin sədri seçilmişdir.

1920-ci il aprelin 27-də 11-ci Qırmızı ordunun artıq Bakını ələ keçirmiş olduğu şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində hakimiyyəti bolşeviklərə təhvil vermək məsələsi müzakirə olunarkən qətiyyətlə bunun əleyhinə çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra gizli fəaliyyətə keçən Rəsulzadənin göstərişi ilə Bakıda "Müsavat"ın gizli mərkəzi yaradıldı. Onun özü isə Lahıcda gizləndi...

M.Ə.Rəsulzadə 1920-ci il avqustun 17-də həbs olunmuş, lakin İ.Stalinin göstərişi ilə həbsdən azad olunub Moskvaya aparılmış, RSFSR-in Milli İşlər Komissarlığında işlə təmin olunmuşdu. Bir müddət sonra Sankt-Peterburqa, oradan isə gizli yolla Finlandiyaya keçərək, Türkiyəyə mühacirət etdi. 1922-ci ilin sonlarında onun İstanbulda siyasi mühacir həyatı başlandı... Müharibədən sonra, 1947-ci ildə Türkiyəyə qayıdan Rəsulzadə burada Azərbaycan Milli Mərkəzinin başçısı kimi fəaliyyətini davam etdirdi.

Rəsulzadə ömrünün sonunadək Azərbaycanın müstəqilliyinin bərpa olunması uğrunda istiqlal mübarizəsini davam etdirmişdir. Ankaranın Əsri qəbiristanında dəfn olunmuşdur.

**Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, II cild**

# Prezident Aleksandr Vuçiçin iştirakı ilə Azərbaycan-Serbiya işgüzar görüşü keçirilib



Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana rəsmi səfəri çərçivəsində mayın 22-də İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan-Serbiya işgüzar görüşü keçirilib.

Tədbirdə rəsmi şəxslərlə yanaşı, Azərbaycanın kənd təsərrüfatı, tikinti, qida sənayesi, turizm, maşınqayırma, bankçılıq, İKT və sair sahələrdə fəaliyyət göstərən şirkətlərinin nümayəndələri iştirak ediblər.

Serbiya Prezidentini və nümayəndə heyətini salamlayan iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan-Serbiya əlaqələrinin strateji tərəfdaşlığa, qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslandığını, Azərbaycan və Serbiya dövlət başçılarının əməkdaşlığın inkişafına böyük əhəmiyyət verdiyini vurğulayıb. Bildirib ki, Serbiya Prezidentinin səfəri zamanı imzalanmış sənədlər ölkələrimiz arasında müqavilə-hüquqi bazanın genişlənməsinə və əlaqələrin inkişafına öz töhfəsini verəcək.

İşgüzar dairələrin iştirakı ilə keçirilən tədbirlərin iqtisadi-ticarət əlaqələrinin genişlənməsində əhəmiyyətini qeyd edən Şahin Mustafayev biznes təşəbbüslərinin stimullaşdırılması baxımından işgüzar görüşün yeni əməkdaşlıq imkanlarının yaranmasına, mövcud əlaqələrin və ticarət əməkdaşlığının genişlənməsinə müsbət təsir göstərəcəyini bildirib.

Nazir Azərbaycanın "Azvirt" şirkətinin Serbiyada yol tikintisini uğurla həyata keçirdiyini qeyd edib, əməkdaşlıq imkanlarına dair fikirlərini bölüşüb.

Serbiya Prezidenti Aleksandr Vuçiç Azərbaycana səfərindən məmnunluğunu ifadə edib, səfəri çərçivəsində Azərbaycanla daha yaxından tanış olmaq üçün yaradılan imkana görə Prezident İlham Əliyevə təşəkkür edib.

Ölkəsinin Azərbaycanla əlaqələrin genişləndirilməsinə önəm verdiyini, iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişaf etdiyini vurğulayan Serbiya Prezidenti ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafının yüksək səviyyəli siyasi əməkdaşlıq səviyyəsinə yüksəlməsi üçün imkanları diqqətə çatdırıb. Qeyd edib ki, səfəri zamanı imzalanmış sənədlər, o cümlədən Strateji Tərəfdaşlığın həyata keçirilməsi üzrə Birgə Fəaliyyət Planı ölkələrimiz arasında əlaqələrin inkişafında xüsusi önəm kəsb edir.

Serbiyada yol tikintisini həyata keçirmiş Azərbaycanın "Azvirt" şirkətinin fəaliyyətini müsbət qiymətləndirən Aleksandr Vuçiç bu işlərin ölkənin digər regionlarında da davam etdirilməsini, "Azvirt"in Azərbaycan biznesini Serbiyada yüksək səviyyədə təqdim etdiyini vurğulayıb. Serbiya iqtisadiyyatı və ölkəsində yaradılmış əlverişli biznes və investisiya mühiti barədə danışan Prezident Aleksandr Vuçiç Azərbaycan iş adamlarını Serbiyada layihələr həyata keçirməyə, ölkəsinin investisiya mühitindən yararlanmağa dəvət edib. Bildirib ki, Serbiyada otel tikintisi, kurort turizminin inkişafı, nəqliyyat-tranzit, kənd təsərrüfatı, sənaye, turizm və sair sahələrdə əməkdaşlıq üçün geniş imkanlar var.

Sonra Aleksandr Vuçiç Azərbaycan şirkətlərinin Serbiya iqtisadiyyatına, əməkdaşlıq imkanlarına dair suallarını cavablandırıb, Serbiya Prezidentinin müşaviri Danilo Sisimil Serbiyanın biznes mühiti barədə məlumat verib.

# Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin maliyyə hesabatı müsbət rəy alıb



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin 2017-ci il üzrə birləşdirilmiş maliyyə hesabatları audit olunub. Auditi dünyanın dörd ən nüfuzlu şirkəti siyahısında yer alan EY ("Ernst & Young") aparıb.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin mətbuat katibliyindən bildirilib ki, EY şirkətinin Azərbaycan üzrə idarəedici partnyoru İlqar Vəliyevin gəmiçiliyin rəhbəri Rauf Vəliyevlə görüşü zamanı hesabatın beynəlxalq standartlara uyğun hazırlandığı və bütün əhəmiyyətli aspektlər baxımından tələblərə tam cavab verdiyi qeyd olunub. Vaxtından əvvəl təqdim olunan maliyyə hesabatı "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də şəffaflıq, uçot prinsiplərinin qorunmasının göstəricisidir.

Müzakirələrdən sonra tərəflər 2017-ci ilin birləşdirilmiş maliyyə hesabatını təsdiqləyiblər. Sözügedən hesabat hər il olduğu kimi, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəsmi internet səhifəsində yerləşdirilib.

Xatırladaq ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 oktyabr tarixli 321 nömrəli qərarı ilə təsdiq olunmuş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən, mühasibat uçotunu aparmalı və maliyyə hesabatlarını təqdim etməli olan ictimai əhəmiyyətli qurumların tərkibinə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC də daxil edilib.

# "Star" neft emalı zavodu üçün ilk neft yükü Azərbaycandan göndəriləcək

SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, "Petkim" neft-kimya kompleksinin ərazisində inşasını davam etdirdiyi "Star" neft emalı zavodu üçün ilk neft yükü iyunda Azərbaycandan göndəriləcək.

Bu barədə "Star" neft emalı zavodunun baş direktoru Mesut İlter deyib. O bildirib ki, iyun ayının sonunda ilk neft yükü simvolik olaraq Azərbaycandan göndəriləcək. Artıq bununla bağlı razılıq əldə olunub. İlk xam neft emalı qurğusu isə iyulun üçüncü həftəsində istismara veriləcək: "İndiyədək "Star" layihəsi üzrə 99,1 faiz irəliləyişə nail olunub və 5,2 milyard dollar xərclənib. Zavod oktyabrın əvvəlində istifadəyə veriildikdə 6,3 milyard dollarlıq investisiya da tamamlanacaq".

"Neftin qiymətinin 100 dollar/barrelə qədər yüksələcəyini düşünmürəm. Qiymətin 60-75 dollar/barrel arasında olması həm istehsalçılar, həm də istehlakçılar üçün ideal səviyyədir", - deyə o bildirib.

Qeyd edək ki, layihə üzrə indiyədək, ümumilikdə, 16 min nəfər çalışıb və 100 milyon/saat iş görülüb. Yay aylarından etibarən zavod sınaq rejimində çalışacaq. Zavodda istehsal olunacaq ilk məhsul sentyabrın sonuncu həftəsində tankerlərlə yola salınacaq.

İllik 10 milyon ton xam neft emal gücü olacaq "Star" neft emalı zavodunda xam neft ilə əsas və ya digər məhsulların saxlanması məqsədilə tikilən, ümumilikdə, 76 ədəd çənin montajı və test işləri tamamlanıb. Gündəlik 34 min kubmetr xam neft emal edəcək zavod Türkiyənin illik kəsirini təxminən 1,5 milyard dollar azaldacaq. 2018-ci ilin üçüncü rübündə zavodda istehsal ediləcək məhsulların satışının həyata keçirilməsi planlaşdırılır. "Star" neft emalı zavodu bu ilin dekabr ayından etibarən tam gücü ilə çalışmağa başlayacaq.

"Star" hər il 10 milyon ton xam neft emal edəcək. Zavodda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton az kükürdlü dizel yanacağı, 700 min ton neft koksu və 160 min ton kükürd istehsal olunacaq.

# «Gənclərin Dostu» milli mükafatı təqdim edildi




"AtaBank" ASC-nin İdarə Heyətinin sədr müavini, hüquq üzrə fəlsəfə doktoru Səbuhi Əliyev ölkənin aparıcı təşkilatlarından biri olan "İslahatçı Gənclər" İctimai Birliyi tərəfindən "Gənclərin Dostu" milli mükafatına layiq görülmüşdür.

Təltifetmə mərasimində "İslahatçı Gənclər" İctimai Birliyinin (İGİB) sədri Fərid Şahbazlı və Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, ölkənin tanınmış hüquq müdafiəçisi Əhməd Şahidov iştirak etmişdir.

Birliyin sədri F.Şahbazlı çıxış edərək bildirdi ki, Birliyin əsas məqsədi ölkəmizdə Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında reallaşdırılan islahatları dəstəkləmək, gənclərin bu islahatlar prosesinə öz töhfəsini verməsinə yardımçı olmaqdır. İGİB fəaliyyətə başladığı vaxtdan ölkədə və xaricdə beynəlxalq əhəmiyyətli tədbirlər keçirib, öz ətrafında aparıcı universitetlər də daxil olmaqla, çoxsaylı fəal, müxtəlif sahələrdə nümunəvi fəaliyyəti ilə seçilən peşəkar gəncləri birləşdiribdir. Birlik Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə ölkə miqyaslı mühüm layihələrin icrasını həyata keçirmişdir.

F.Şahbazlı qeyd edib ki, bu gün Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Cənab Prezident İlham Əliyev tərəfindən olduqca uğurla davam etdirilən dövlət gənclər siyasəti həyata keçirilir: "İslahatçı Gənclər" İctimai Birliyi hər il ənənəvi olaraq gənclərlə iş sahəsində müstəsna xidmətləri olan, gənclərin təklif və təşəbbüslərini dəstəkləyən şəxs və qurumları "Gənclərin Dostu" milli mükafatı ilə təltif edir. İndiyədək Birlik tərəfindən belə mükafat Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya, müdafiə naziri cənab Zakir Həsənova, Respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili cənab Fəttah Heydərova və digər ictimai-siyasi xadimlərə təqdim edilmişdir.

# Naxçıvanın xarici ticarət dövriyyəsində 87 milyon 522 min ABŞ dolları dəyərində müsbət saldo yaranıb



Yanvar-aprel aylarında muxtar respublikada 108 milyon 711 min 600 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 98 milyon 117 min 200 ABŞ dolları təşkil edib, 87 milyon 522 min 800 ABŞ dolları dəyərində müsbət saldo yaranıb.

Muxtar respublikanın Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, bu ilin yanvar-mart aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 421 manata çatıb. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikasında bank sektoru uğurla fəaliyyət göstərir. 2018-ci il 1 may tarixinə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 69 min 757-yə çatıb ki, bunun da 60 min 823-ü və ya 87,2 faizi aktiv hesablardır. Yanvar-aprel aylarında açılmış 5131 bank hesabının 5063-ü aktiv hesablar olub. Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı isə mayın 1-nə 1266-ya çatıb.

# Çinin İxrac Kredit Sığorta Korporasiyası SOCAR-la əməkdaşlıqda maraqlıdır



Çinin İxrac Kredit Sığorta Korporasiyası ("Sinosure") Azərbaycan və SOCAR ilə əməkdaşlığa maraq göstərir.

SOCAR-dan bildirilib ki, mayın 21-də şirkətin prezidenti Rövnəq Abdullayev Çinin İxrac Kredit Sığorta Korporasiyasının icraçı direktoru Vanq Yinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə SOCAR-ın kəşfiyyat, hasilat, nəql, emal və kimya sahələrində həyata keçirdiyi layihələrdə Çin şirkətlərinin iştirakı üçün mövcud imkanlar barədə müzakirə aparılıb.

Çin şirkətlərini Azərbaycan iqtisadiyyatına investisiyalar yatırmağa cəlb etmək üçün "Sinosure" və SOCAR arasında məlumat mübadiləsinin təşkili və bu istiqamətdə ortaq səylərin gücləndirilməsinin zərurəti vurğulanıb, habelə SOCAR-ın fəaliyyət göstərdiyi region ölkələrində də Çin şirkətləri üçün investisiya imkanları müzakirə olunub.

"Sinosure" ixrac kreditlərinin sığortalanması sahəsində ixtisaslaşan yeganə Çin sığorta şirkətidir. O, öz fəaliyyətinə 2001-ci ilin dekabr ayında başlayıb və mənzil qərargahı Pekində yerləşir. "Sinosure" ölkə miqyasında xidmət şəbəkəsi formalaşdırıb. Son illərdə 187,2 milyard dollar həcmində investisiya və 141,4 milyard dollar həcmində orta və uzunmüddətli ixrac krediti sığortalayıb. "Sinosure" hazırda dünya üzrə 85 min müştəriyə xidmət göstərir.




# "Asan İmza" Almaniyada keçirilən ən böyük Avropa konfransında təmsil olunub




Münxen şəhərində identitet və bulud texnologiyası üzrə "European Identity & Cloud Conference 2018" Avropa konfransı keçirilib. Konfransda bu sahədə qabaqcıl Avropa təcrübəsi, yeni trendlər və texnologiyalar, təhlükəsizlik standartları təqdim edilib. Tədbir özündə identitet sahəsində lider şirkətlərin 800-dən çox aparıcı ekspertlərini, vendorları, analitiklərini və rəhbərlərini birləşdirib. Konfrans 160-dan çox sessiyadan ibarət idi. Bu il müzakirənin əsas mövzuları identifikasiya və əlyetərliliyin idarə edilməsi, blokçeyn vasitəsilə identifikasiya, konfidensiallıq və təhlükəsizlik, risklərin idarə edilməsi və yüngülləşdirilməsi, fərdi məlumatların qorunmasının təmin edilməsində dünya standartları və etibarlılığın peşəkar xidmətlərinin təqdim edilməsi, kibertəhlükəsizlik kimi mövzular olub.

Konfransda dünyanın müxtəlif ölkələrindən 200-dən çox məruzəçi iştirak edib.

"B.EST Solutions" şirkətindən bildirilib ki, Azərbaycanı "Asan İmza" mobil elektron imzanın operatoru sayılan "B.EST Solutions" şirkətinin təsisçisi və direktoru Yana Krimpe təmsil edib. Yana Krimpe "Dünya standartlarına cavab verən mobil identitetin əsasları" və "Mobil proqramların təhlükəsizliyinin təmin edilməsində identifikasiya probleminin həll edilməsi" mövzularında çıxış edib. Mobil İdentitet və təhlükəsizlik üzrə paneldə, həmçinin GSMA-da proqramlar və servislərin rəhbəri Devid Pollinqton, "CA Technologies" şirkətinin kibertəhlükəsizlik üzrə direktoru Hordi Qaskon, "KuppingerCole" şirkətinin informasiya təhlükəsizliyinin idarə edilməsi üzrə məsləhətçisi və analitiki Mayk Smol da vardı. Yana Krimpe konfrans iştirakçılarına 2017-ci ildə yaradılan və mobil identifikasiya xidmətlərini öz milli sxemlərinə uyğun təqdim edən ölkələrin işlərinin əlaqələndirilməsinə istiqamətlənən Milli Mobil İdentitetlərin Qlobal İttifaqının vəzifələrini təqdim edib.

# Gələcəkdə pilot layihələr əsasən kənd təsərrüfatı və turizmin inkişafı ilə bağlı olacaq

Avropa İttifaqının zəif inkişaf etmiş regionların inkişafını sürətləndirməklə, həmin regionların inkişafına kömək etmək, eyni zamanda, sözügedən ərazilərdə əhalinin həyat səviyyəsinin yüksəldilməsi sahəsində böyük təcrübəsi var.

Bu barədə Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Jankauskas jurnalistlərə müsahibəsində deyib.



Azərbaycanda artıq başa çatmış "Pilot Regional İnkişaf Proqramının icrası üzrə Texniki Dəstək Layihəsi"nə toxunan Kestutis Jankauskas bildirib ki, Aİ Aran İqtisadi rayonunda sahibkarlığın inkişaf etdirilməsinin müxtəlif yollarının təşviq etdirilməsində İqtisadiyyat Nazirliyinə dəstək olmaqla yanaşı, öz təcrübəsini də bölüşüb.

Onun sözlərinə görə, gələcəkdə pilot layihə digər regionlarda da tətbiq ediləcək. Əsas prioritetlər isə kənd təsərrüfatı və turizmin inkişafı ilə bağlı olacaq.

Nəzərə çatdırılıb ki, Avropa İttifaqı başqa bir proqrama əsasən, Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi və Qida Təhlükəsizliyi Agentliyi ilə əməkdaşlıq edir. Belə ki, Avropa İttifaqına daxil olan ölkələr fitosanitar nəzarəti sahəsində Azərbaycanın bəzi məhsullarının Aİ ölkələrinə ixracı ilə bağlı akkreditasiya məsələlərinə köməklik göstərir.






# "Heydər Əliyev və Azərbaycan mediası" mövzusunda konfrans keçirilib

Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Qaradağ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan mediası" mövzusunda konfrans keçirilib. Tədbir çərçivəsində, həmçinin, birgə elan edilmiş "Qaradağ rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıblar.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, Fondun icraçı direktoru Vüqar Səfərli, Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Məmmədov, Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və müsabiqədə qalib olmuş jurnalistlər iştirak ediblər.

Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov qonaqları və media təmsilçilərini salamlayaraq, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş tədbirin ulu öndərin zəngin dövlətçilik irsinin öyrənilməsi baxımından əhəmiyyətini qeyd edib. Ulu öndərin hələ sovetlər birliyi dövründə Azərbaycanın gələcək müstəqilliyi üçün hərtərəfli zəmin hazırladığını deyən S.Mikayılov o illərdə Bakı şəhərində böyük tikinti-quruculuq işlərinin həyata keçirildiyini, yeni qəsəbələrin, yaşayış massivlərinin salındığını diqqətə çatdırıb.

Ümummilli liderin müstəqil Azərbaycana rəhbərliyi illərində Bakının Qaradağ rayonunun sürətli inkişaf yolu keçdiyini deyən S.Mikayılov bu siyasətin son 15 ildə Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. O bildirib ki, yeni liman Azərbaycanın beynəlxalq tranzit-kommunikasiya imkanlarını daha da genişləndirməklə ildə 15 milyon tondan çox yükün daşınmasına imkan verir.

Fondun icraçı direktoru Vüqar Səfərli bildirib ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş konfransın keçirilməsində məqsəd dahi şəxsiyyətin Azərbaycan dövlətçiliyi qarşısındakı misilsiz xidmətlərinə, eləcə də medianın inkişafı sahəsində gördüyü böyük işlərə bir daha nəzər salmaqdır.

V.Səfərli dövlət müstəqilliyinin ilk illərində söz, fikir və məlumat azadlıqlarının təminatı sahəsində də ciddi problemlərin olduğunu, mətbuatın ciddi təzyiqlərlə üzləşdiyini xatırladıb. Bu acınacaqlı vəziyyətin yalnız ulu öndər Heydər Əliyevin xalqın istəyi ilə 1993-cü ilin iyununda hakimiyyətə gəlişindən sonra aradan qalxdığını deyən V.Səfərli 1995-ci ildə qəbul olunmuş Azərbaycan Konstitusiyasının 50-ci maddəsində hər kəsin söz, fikir, məlumat əldə etmək və yaymaq hüququnun təsbit edildiyini vurğulayıb.

Ümummilli liderin 1998-ci il 6 avqust tarixli fərmanı ilə mətbuat üzərində senzuranın ləğvini mətbuatın inkişafında keyfiyyətcə yeni mərhələ kimi dəyərləndirən icraçı direktor, sonrakı dövrdə medianın maddi-texniki bazasının möhkəmləndirilməsi, mükəmməl qanunvericilik bazasının formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən söz açıb. V.Səfərli bildirib ki, 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" qanunun qəbulu, 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyinin ləğv edilməsi, 2003-cü ildə Azərbaycan Mətbuat Şurasının yaradılması müasir mətbuat tariximizə ən parlaq səhifələr kimi daxil olub.

İcraçı direktor qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci ilin 31 iyulunda imzaladığı sərəncamla "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi medianın inkişafına yeni təkan verib. Konsepsiyadan irəli gələn vəzifələrin gerçəkləşdirilməsi üçün 2009-cu ilin aprelində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb.

Çıxışını davam etdirən icraçı direktor ötən illərdə Fondun mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması, mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verib.




Tədbirdə çıxış edən Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə Azərbaycan dövləti xaos və anarxiyadan, vətəndaş müharibəsi təhlükəsindən xilas olaraq, davamlı tərəqqi və inkişaf mərhələsinə qədəm qoyub. Heydər Əliyevin islahatçı lider olduğunu vurğulayan Ə.Amaşov onun rəhbərliyi ilə 1993-2003-cü illərdə siyasi və hüquqi sahədə genişmiqyaslı islahatların aparıldığını, xüsusilə də müstəqil medianın formalaşdığını diqqətə çatdırıb.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Məmmədov ulu öndər Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci illərində Azərbaycan dilinin, milli özünüdərkin inkişafı, respublika üçün milli kadrların hazırlanması istiqamətində həyata keçirdiyi tədbirlərdən söz açıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının sədri, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov Azərbaycan mətbuatının inkişafının hələ ötən əsrin 70-80-ci illərindən ulu öndər Heydər Əliyevin xüsusi diqqət mərkəzində olduğunu xatırladıb. H.Həsənov bildirib ki, müstəqillik illərində ölkədə söz, fikir və məlumat azadlıqlarının yüksək səviyyədə mövcud olduğu plüralist cəmiyyətin formalaşması məhz ümummilli liderin tarixi xidmətləri ilə bağlıdır.

"İki Sahil" qəzetinin baş redaktoru, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə çıxışında bildirib ki, müasir Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunu qoruyub saxlaması və böyük uğurlara imza atması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. O, həmçinin bildirib ki, son 15 ildə ulu öndərin siyasətini bütün sahələrdə inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev cəmiyyətin inkişafında və mövcud problemlərinin həllində medianın rolu və imkanlarını yüksək dəyərləndirir.

Çıxışlardan sonra Fondun Qaradağ Rayon İcra hakimiyyəti ilə birgə keçirdiyi "Qaradağ rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb.

Fondun icraçı direktoru Vüqar Səfərli bildirib ki, müsabiqənin təşkilində məqsəd medianın Qaradağ Rayon İcra Hakimiyyəti ilə əlaqələrinin daha da genişləndirilməsi, rayonda əldə olunmuş nailiyyətlərin ictimaiyyətə dolğun və obyektiv şəkildə çatdırılması, habelə jurnalistlərin yaradıcı əməyinin stimullaşdırılmasıdır. İcraçı direktor 2018-ci il fevralın 23-dən aprelin 27-dək davam edən müsabiqəyə 27 kütləvi informasiya vasitəsindən 42 yazının təqdim edildiyini bildirib.

Sonra müsabiqənin qaliblərinə diplom və mükafatlar təqdim edilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# AQRAR SAHƏDƏ SÜRƏTLİ İNKİŞAF MƏHSUL İSTEHSALI VƏ İXRAC MƏSƏLƏLƏRİNƏ YENİ YANAŞMA TƏLƏBİDİR

Sitrusdan, çaydan, çəltikdən, çeşid-çeşid tərəvəz və bostan bitkilərindən söhbət düşəndə, o andaca Azərbaycanın cənub bölgəsi göz önünə gəlir. Bu bölgənin ən iri kənd təsərrüfatı rayonlarından biri də Masallıdır. Rayon Lənkəran, Lerik, Yardımlı, Cəlilabad və Neftçala rayonları ilə həmsərhəddir. Ərazisi 721 kvadratkilometr, əhalisi 224 min nəfərdir. Masallıda əhali dünya əhalisinin sıxlığından 7 dəfə çoxdur. Buranın gözəl, əsrarəngiz təbiəti vardır. Şərqdən Xəzər dənizi, Qərbdən dağlarla əhatələnir. Rayon ərazisindən axıb Xəzərə tökülən Viləş, Alvadıçay və Tatyan çayları öz mənbələrini Lerik və Yardımlı dağlarından götürür. Viləşçay su dəryaçası 1976-cı ildə ulu öndər Heydər Əliyevin göstərişi ilə yaradılmış və Masallı və Cəlilabad rayonlarının yaşayış məntəqələrini içməli su ilə təmin edir. Müstəqillik dövründə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının 2004-2008-ci illəri əhatə edən birinci mərhələsi çərçivəsində dəryaçada genişmiqyaslı yenidənqurma işləri aparılıb.

Masallıda çoxlu təmiz, saf suyu olan bulaqlar mövcuddur. Təkcə Ərkivan kəndində 37 bulaq vardır. 1929-cu ildə yaradılmış Qızılağac qoruğunun böyük bir hissəsi də Masallı rayonunun ərazisində yerləşir. Burada 248 növ quş, 54 növ balıq qorunur. Bu gün rayon ərazisində 15-dən çox turizm-istirahət mərkəzi fəaliyyət göstərir ki, bu obyektlər gün ərzində 1000 nəfərdən artıq turist qəbul etmək iqtidarındadır.

Masallıda yetişdirilən sitrus, tərəvəz, çay vaxtilə Sovetlər İttifaqının müxtəlif şəhərlərinə göndərilirdi və yaxşı ad-san qazanmışdı. SSRİ süqut etdikdən sonra respublikalar, ən başlıcası isə Rusiya Federasiyasının subyektləri arasında əlaqələr qırıldı. Masallıda mövcud olan çay və sitrus plantasiyalarının böyük bir qismi baxımsız qalaraq sıradan çıxdı. Bax, beləcə çoxillik bitkilərin inkişafında ciddi süstlük, gerilik baş verdi. Yeni plantasiyalar salıb, onları bar verən vəziyyətə gətirmək isə uzun zamanın işi idi.

Bu hal 1997-ci ilə kimi davam etdi. 1998-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə uğurla gerçəkləşdirilən torpaq islahatları bütün respublikada olduğu kimi, Masallının kənd təsərrüfatının dirçəlişində də dönüş nöqtəsi oldu. Masallıda torpaqlar sahiblərinə qaytarıldı, salamat qalan plantasiyalara aqrotexniki qulluq göstərildi, yeni sahələr salındı və torpaq mülkiyyətlərinə dövlətin qayğı və yardımının ilk işartıları görünməyə başladı. 2004-cü ildən başlayaraq Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən bu diqqət və qayğı hiss olunacaq dərəcədə yüksəldi. Elə həmin ilin fevral ayının 11-də regionların sosial-iqtisadi inkişafına dair ilk Dövlət Proqramı qəbul edildi. Rayonda əsl inkişaf və quruculuq mərhələsi başlandı. Bunun davamı olaraq 2009-2013-cü illəri əhatə edən ikinci, nəhayət, 2014-2018-ci illəri əhatə edən üçüncü mərhələ Dövlət Proqramları qəbul edilərək, uğurla həyata keçirilməyə başladı. Bu illər ərzində dövlət başçısı Masallıya 9 dəfə səfər etmişdir.

Bəli, bu 15 il Masallı rayonunun həyatında, tarixində, iqtisadi yüksəlişində parlaq səhifələr açmışdır. Rayon, onun kənd və qəsəbələri simasını köklü şəkildə dəyişmiş, bütün digər sahələrlə bərabər, rayonun kənd təsərrüfatında sıçrayışlı inkişaf baş vermişdir. Həm ənənəvi sahələr yeni çağırışlar fonunda inkişaf mərhələsinə qədəm qoymuş, həm də yeni istiqamətlər üzrə işlərə başlanılmışdır. Çəltikçilik, çiyələkçilik kimi sahələr aqrar bölmədə öz payını ilbəil artırmaqda davam edir. Çiyələyin yeni texnologiya əsasında saxlanılması və soyudulması üçün xüsusi kameralar tikilib. Həmin yerlərə alternativ enerji mənbəyi kimi generatorlar qoyulub. Yığılan məhsul çeşidlənərək xüsusi tarlalarda qablaşdırılır, soyudulur, sonra avtorefrijeratorlara yüklənərək müxtəlif ünvanlara yola salınır. Bu mövsümdən başlayaraq tarlaların hər tərəfinə «Azərbaycan məhsulu» etiketi vurulur. Cari ildə «Uğur SVE» müəssisəsi 20 hektar ərazidə çiyələk yetişdirir. Bunun 8 hektarı «Abbion», qalanları isə «Sanandres» sortudur. Rayonda çiyələkçiliklə məşğul olan kiçik fermer təsərrüfatları çoxdur. Dövlətin ayırdığı güzəştli kreditlər hesabına onların sayı hər il artır. Artıq rayonda yeni sahibkarlıq zümrəsi formalaşır, modern təsərrüfatlar formalaşır. Elə təsərrüfat subyekti vardır ki, onun öhdəsində bir neçə hektar çay, fındıq, sitrus bağları vardır. Yeni plantasiyaların salınması prosesi bu gün də uğurla davam etdirilir. Bir neçə ildən sonra bu təsərrüfatlar rayonun iqtisadi həyatına öz real təsirini göstərəcəkdir. Rayonun Sığaçola ərazisində «Azərsun Holding» MMC-nin çay plantasiyaları yerləşir. Məhdud Məsuliyyətli Cəmiyyət 2014-cü ildə burada 10 hektar, 2015-ci ildə isə 30 hektar çay plantasiyaları salıb.



Dövlət başçısının çayçılığın inkişafı ilə əlaqədar imzaladığı sərəncamdan sonra çay plantasiyalarının həcmi rayon üzrə 100 hektara çatdırılıb. Çay plantasiyaları təbiətin gözəl guşələrində yerləşir, təmiz, saf dağ havası insanın ruhunu oxşayır. Həmin 100 hektar plantasiyada «Kolxida» sortundan olan çay kolları əkilib. Toxumlar Türkiyə Respublikasından gətirilib. 2014-cü ildə salınmış plantasiyalardan artıq ilk yarpaqların yığımına başlanılıb. Digər bitkilər kimi, çay üçün suvarma suyu əsas şərtdir. Bu məqsədlə ərazidə 9 min kubmetrlik süni suvarma gölü yaradılıb. Dağlardan süzülüb gələn bulaq suları bura toplanır, sonra damcı və süni yağdırma üsulu ilə sahələrin suvarılması üçün istifadə olunur. Plantasiyalar dağətəyi relyefdə əkildiyi üçün buraya yeni yol çəkilib. Çayçılıqda xeyli sayda yeni iş yerləri açılıb.

Azərbaycanda istixana təsərrüfatı böyük sürətlə artır. Keçən il kənd təsərrüfatı üzrə respublikamıza ən çox valyuta gətirən istixana təsərrüfatlarında yetişdirilən pomidor olmuşdur. Masallı rayonunda da bu sahədə uğurlu başlanğıclar var. Şərəfə kəndi ərazisindəki «Masallı istixanası» fermer təsərrüfatı 2012-ci ildə yaradılıb. İlkin halda cəmi 2 hektar olan təsərrüfat sonradan 10 hektara çatdırılıb. İstixanada pomidor yetişdirilir. Türkiyədən gətirilən «Banduta» sortu həm daxili, həm də xarici bazarlarda yaxşı satılır.

İstixana təsərrüfatı əsl sənaye müəssisəsini xatırladır, burada texniki yeniliklər tətbiq olunur. Rusiya Federasiyasında çalışan iş adamları doğma rayonlarına dönərək nümunəvi istixana təsərrüfatları yaradırlar. İstehsal olunan məhsullar elə onların vaxtilə çalışdıqları Rusiya Federasiyasının şəhərlərinə ixrac edilir. Bundan həm sahibkar, həm də yerli sakinlər bəhrələnir, yüzlərlə yeni iş yerləri açılır. Rayonda, həmçinin kənd təsərrüfatının ixtisaslaşdırılması ilə əlaqədar müəyyən işlər görülür. Fermerlər arasında torpaq və iqlim şəraitinə uyğun bitkilərin əkilib-becərilməsi məqsədilə geniş maarifləndirmə tədbirləri aparılır. Masallıda taxılçılıq rentabelli sahə sayılmır. Belə ki, ən yaxşı halda sahələrdən 20-22 sentner məhsul götürmək olar ki, bu da respublikada orta göstəricidən də xeyli aşağıdır. Məhz bu səbəbdən rayon rəhbərliyi Masallı fermerlərinə rayon üçün məqbul olan, gəlir gətirən məhsul növlərinin istehsalının genişləndirilməsini tövsiyə edir. Bunun nəticəsidir ki, rayonda çəltik, noxud, sarımsaq, kartof, pomidor, tütün əkin sahələri ildən-ilə genişlənir. Bu ilin məhsulu üçün 1051 hektar kartof, 570 hektar badımcan, 233 hektar xiyar, 878 hektar noxud, 172 hektar paxla, 73 hektar mərci, 3 hektar lərgə, 66 hektar lobya, 122 hektar bibər, 349 hektar yemiş, 85 hektar kələm, 144 hektar çiyələk, 159 hektar soğan, 19 hektar zəfəran və digər bitkilər əkilib.

Çəltik və tütün sahələrində əkin başa çatdırılıb, 294 hektarda çəltik, 50 hektarda tütün əkini planlaşdırılıb. Bu da müvafiq olaraq keçən ildəkindən 99 və 19 hektar çoxdur. 2017-ci ildə «Masallı nemətləri» MMC çəltik zavodu tikilib. Baramaçılığın inkişafı sahəsində də müəyyən işlər görülüb.

Ötən il rayon üzrə 12 kümçü ailəsinə 20 qutu baramaqurdu verilib və 489, 5 kiloqram barama tədarük edilib. Cari ildə rayonda 3 min ədəd tut tingi əkilib. Çin Xalq Respublikasından gətirilmiş 5 min ədəd tut tingi isə Seybətin yaşayış məntəqəsi ərazisində əkilib.

Hər şey sahibkarın, kəndlinin istehsal etdiyi məhsulu yaxşı qiymətə satmasından asılıdır. Belə olan halda əkinə həvəs və maraq da artır.

2017-ci ildə Masallı və Cəlilabad rayonlarının təsərrüfatlarında sellofan altında becərilən faraş kartof 1,5 manata satılıb, cari ildə isə 40 qəpiyə satılır. Bu il keçən ildəkindən qat-qat çox noxud və sarımsaq əkilib. Sarımsaq toxumu materialının hər kiloqramını 5 manata alan təsərrüfat adamı bu gün çox narahatdır. Belə bolluq şəraitində qiymətlər də düşəcək.

Ümumiyyətlə, kənd təsərrüfatı istehsalında belə vəziyyət tez-tez baş verir. Bunu tənzimləmək məsuliyyəti isə müvafiq qurumların üzərinə düşür. Fikrimizcə, hər bir məhsulun sabit satınalma qiyməti müəyyən olunmalı, bu işi icra edən assosiativ təsisatlar və yaxud birjalar şəbəkəsi yaradılmalıdır.

Strateji hədəf ölkədə ərzaq bolluğu yaratmaqdır.

Elə etmək lazımdır ki, buna əngəl ola biləcək bütün maneələr aradan qaldırılsın.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# В 2018 году в Азербайджане начнут действовать 15 агропарков



В 2018 году в Азербайджане приступят к деятельности 15 агропарков. Об этом было сказано во вторник в ходе расширенного заседания коллегии министерства экономики.

«В настоящее время продолжаются работы по созданию агропарков, которые имеют особое значение в укреплении продовольственной безопасности. На данный момент проводится работа по созданию 45 агропарков в 30 районах страны. В трех из этих агропарков завершен первый этап работ, а в целом в 2018 году будут сданы в эксплуатацию 15 агропарков», - было отмечено на коллегии.

На заседании коллегии были даны поручения соответствующим структурам министерства о продолжении изучения возможностей создания крупных фермерских хозяйств и агропарков и в других районах.

Было отмечено, что за прошедший период 2018 года Национальным фондом поддержки предпринимательства министерства экономики за счет возвращенных кредитов были выданы 397 предпринимателям, общая стоимость проектов которых составляет 371 миллион Манатов, льготные кредиты на сумму 64,4 миллиона манатов. 69 процентов этих кредитов приходятся на долю аграрного сектора, а 31 процент - на долю промышленности и другие сектора. 92 процента выданных кредитов приходятся на долю регионов. В 2018 году за счет возвращенных средств, будет обеспечена выдача льготных кредитов предпринимателям как минимум на сумму 170 миллионов манатов. В целом, на сегодняшний день выдано государственных льготных кредитов в размере 2,2 миллиарда манатов более чем 35 тысячам предпринимателям. Один миллиард манатов из этих кредитов приходится на долю госбюджета, а другая часть -на долю возвращенных кредитов.

# TANAP еще более усилит позиции Азербайджана и Турции на мировом энергорынке



С началом эксплуатации Трансанатолийского газопровода (TANAP) позиции Азербайджана и Турции на мировом энергетическом рынке еще более усилятся. Об этом сказали Trend в среду в министерстве энергетики и природных ресурсов Турции.

Как отметили в министерстве, Турция всегда с оптимизмом относилась к реализации данного проекта.

«TANAP никогда не рассматривался в качестве альтернативы какому-либо другому проекту, в свою очередь у Трансанатолийского газопровода также нет иной альтернативы», - сообщили в министерстве. Отметим, что ранее министр энергетики и природных ресурсов Турции Берат Албайрак сказал, что церемония ввода в эксплуатацию TANAP состоится 12 июня 2018 года.

Трубопровод TANAP будет проложен от грузино-турецкой границы до западной границы Турции.

TANAP вместе с другим газопроводом - Трансадриатическим (TAP) - является частью проекта «Южный газовый коридор», который предусматривает транспортировку газа с азербайджанского месторождения «Шах Дениз» в Европу. Первоначальная пропускная способность трубопровода TANAP, как ожидается, составит 16 миллиардов кубических метров газа в год. Около шести миллиардов кубометров будет поставляться в Турцию, а остальное - в Европу. После завершения строительства TAP газ поступит в Европу приблизительно в начале 2020 года.

Долевое распределение акционеров TANAP выглядит следующим образом: ЗАО «Южный газовый коридор» - 51 процент, SOCAR Turkey Enerji - семь процентов, Botas - 30 процентов, BP - 12 процентов.

# Банки Азербайджана взялись за проблемные кредиты: обсуждается коллективное соглашение

В Азербайджане возобновляются переговоры по разработке так называемого "Бакинского подхода", который призван помочь снизить объем проблемных кредитов в стране.

Об этом Trend сообщил источник на финансовом рынке страны.

Собеседник агентства отметил, что с этой целью сегодня после большого перерыва за одним столом соберутся банкиры и представители Ассоциации банков Азербайджана (АБА).

Впервые банки начали обсуждать создание "Бакинского подхода" в конце прошлого года. Тогда участники рынка приняли решение создать рабочую группу, но с тех пор особого прогресса в разработке этого подхода не было.

"На сегодняшней встрече банкиры обсудят текущую ситуацию с проблемными кредитами, а также общие правила и положения "Коллективного соглашения о программе реструктуризации нерабочих активов", который и является основной "Бакинского подхода" ", - сказал собеседник агентства.

Банкиры в рамках "Бакинского подхода" просили снизить ставки резервирования по выдаваемым кредитам и освободить "проблемных заемщиков" от налогов. По словам источника, пока неизвестно согласится ли Палата надзора над финансовыми рынками пойти навстречу банкам и включить эти пункты в коллективное соглашение.

За минувшие два-три года банки реструктуризировали большое число займов, но эти меры каждый банк совершал отдельно, и в масштабах всего рынка желаемых результатов получить не удалось. "Бакинский подход", в свою очередь, предусматривает комплексные меры для борьбы с проблемными кредитами, в том числе реструктуризацию и облегчение условий по кредитам.

Согласно данным Центрального банка Азербайджана, объем просроченных кредитов в стране на первое апреля 2018 года составил 1,71 миллиарда манатов, что на 7,5 процента больше показателя аналогичного периода прошлого года. Доля просроченных займов в совокупном кредитном портфеле банков за тот же период выросла с 10,2 до 14,6 процента.

# Баку станет платформой для управления деятельностью в Центральной Азии

Региональный офис нефтяной компании Саудовской Аравии Saudi Aramco в Азербайджане будет служить платформой для управления деятельности компании в Центральной Азии, сказали Trend в головном офисе Saudi Aramco.

"Крупнейший в мире производитель нефти – компания Saudi Aramco зарегистрировала свое региональное представительство - "Aramco Overseas Company Azerbaijan LLC" (Aramco AOC Azerbaijan) в Баку. Этот офис также станет платформой для управления и реализации всех видов деятельности компании в Центральной Азии", - сказали в компании.

Как сказали в компании,




"Aramco AOC Azerbaijan" в основном сосредоточится на предоставлении нефтегазовых, перерабатывающих и связанных с ними услуг, а также будет оценивать перспективы для развития нового бизнеса, с тем, чтобы выявлять возможности для сотрудничества в интегрированном секторе энергетики и химической промышленности в Центральной Азии.

"Saudi Aramco обладает многолетним опытом в нефтегазовом секторе, включая разведку и добычу, как на суше, так и на морском шельфе. Теперь настало время извлечь выгоду из этого богатого опыта и довести его до уровня стратегического партнерства в Азербайджане и Центральной Азии. Мы решили открыть офис в Баку, учитывая стабильность страны под руководством Президента Ильхама Алиева, и тот факт, что правительство Азербайджана оказывает всемерную поддержку нефтяной промышленности, развитию энергетики и быстрому экономическому росту", - сказали в Saudi Aramco.



Ünvan: Bakı şəhəri, 3-cü mkr., Pişəvari küç., 110 (Cavadxan küç 24), Memar Əcəmi metrosunun yaxınlığında
/bioloji.tababat
www.btk.az
(012)(050) (055)(070) 430 89 89




# "Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir"



UNEC və "Səs" media qrupunun birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan "Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" mövzusunda konfrans keçirilib.

UNEC-də keçirilən konfransda millət vəkilləri, tarixçi alimlər, media qurumlarının rəhbərləri, professor-müəllim heyəti və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfrans iştirakçıları öncə Azərbaycan İstiqlal Muzeyinin eksponatlarından ibarət foto-sərgi ilə tanış olublar. Sərgidə cümhuriyyətin qurucuları, əsgər və zabitlərinin, o cümlədən dövrün əhəmiyyətli sənədlərinin fotoları nümayiş etdirilib.

Konfransda UNEC-in rektoru, professor Ədalət Muradov Şərqdə ilk demokratik parlament respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin hər bir azərbaycanlının qürur mənbəyi olduğunu bildirib. Rektor ulu öndər Heydər Əliyevin "Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qorumaq, möhkəmləndirmək bir o qədər də ağır və mürəkkəbdir" fikrinə diqqət çəkərək, məhz ümummilli liderin uzaqgörən siyasəti nəticəsində müstəqilliyimizin əbədi və sarsılmaz olduğunu vurğulayıb. O, cümhuriyyət tarixinin ilk dəfə ulu öndərin rəhbərliyi dövründə təhlil olunduğunu bildirərək, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Ə.Muradov dövlət başçısının sərəncamı ilə 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsini bunun bariz nümunəsi adlandırıb.

"Səs" media qrupunun rəhbəri Bəhruz Quliyev AXC-ni Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsi kimi səciyyələndirib. Bildirib ki, ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını xalqımız üçün tarixi hadisə adlandırıb. Prezident İlham Əliyev isə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını xalqın milli oyanışının məntiqi yekunu kimi dəyərləndirib.

AMEA-nın müxbir üzvü, millət vəkili Musa Qasımlı AXC-ni zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyan, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə ölkəmizin gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayan demokratik respublika kimi xarakterizə edib.

AXC-nin qanunvericilik siyasətindən bəhs edən millət vəkili Musa Quliyev Milli Şuranın formalaşması prosesi və fəaliyyətindən danışıb. Millət vəkili Elman Nəsirli bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq, 1918-1920-ci illər Azərbaycan tarixinin mühüm səhifəsini təşkil edir.

Millət vəkilləri Aydın Hüseynov AXC dövründə həyata keçirilən iqtisadi islahatlardan söz açıb, Rauf Əliyev müsəlman Şərqində ilk parlamentli demokratik respublika olan cümhuriyyətin çox mühüm qərarlar qəbul etdiyini vurğulayıb, Azər Badamov məhz bu dövrdə Şərqdə ilk dəfə qadınlara seçki hüququ verildiyini, dövlət strukturları, nizami milli ordu yaradıldığını diqqətə çatdırıb.

"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Şərqdə ilk dəfə olaraq Azərbaycanda demokratik cümhuriyyətin yaradılmasını mühüm əhəmiyyət kəsb edən və gələcəkdə xalqımızın taleyinə ciddi təsir edən tarixi hadisə adlandırıb.

Tədbirdə iştirak edən görkəmli tarixçi alimlər ADPU-nun prorektoru Asəf Zamanov, AMEA-nın Fəlsəfə İnstitutunun şöbə müdiri Sakit Hüseynov, BDU-nun kafedra müdirləri Anar İsgəndərov, İradə Hüseynova, tarixçi alim Boran Əziz və digərləri AXC-nin xalqımıza verdiyi töhfələrdən bəhs edərək, qısa hakimiyyətləri dövründə Azərbaycan tarixində 350 ilkə imza atıldığını diqqətə çatdırıblar. Çıxış edənlər belə bir mühüm tədbirin UNEC-də qeyd edilməsinin əhəmiyyətini vurğulayaraq, bu universitetin Azərbaycan ali təhsil sisteminə bir çox yeniliklər gətirdiyini bildiriblər.







Xalqımızı 28 May - Respublika günü münasibəti ilə ürəkdən təbrik edirik!
Müstəqilliyimiz əbədi, dövlətimiz güclü, xalqımız əmin-amanlıq içində olsun.
BAYRAMINIZ MÜBARƏK!



# "AtaBank" yeni "AtaNet" Mobil əlavəsini geniş ictimaiyyətə təqdim etdi




Azərbaycanın qabaqcıl banklarından biri olan "AtaBank" ASC yeni "AtaNet" mobil bankçılıq məhsulunun təqdimat mərasimini keçirib. "AtaNet" korporativ biznes nümayəndələrinin, sahibkarların və fərdi müştərilərin ehtiyac və tələblərinə uyğun olaraq işlənib hazırlanmışdır. Təqdimat mərasimində yeni xidmətdən istifadənin təhlükəsizliyi məsələlərinə xüsusi diqqət yetirilmişdir. Məhsul beynəlxalq standartlara uyğun hazırlanıb və bir neçə səviyyəli mühafizə ilə təmin olunub. İstifadəçi birdəfəlik şifrə (OTP) və ya Asan imza ilə yanaşı, smartfon və ya planşet barmaq izi funksiyasını dəstəkləyərsə, həm də barmaq izi ilə əlavəyə daxil olmaq imkanı əldə edə biləcək. Qeyd edək ki, xidmətlərdən istifadə zamanı birdəfəlik şifrələr vasitəsilə təhlükəsizlik tam təmin olunur.

Tədbirdə çıxış edən İdarə Heyəti Sədrinin birinci müavini Etibar Babaşlı qeyd etmişdir ki, Bank müştərilərinə daim innovativ məhsullar təqdim edib və edəcəkdir. "AtaBank"ın gələcək illərdə də müştərilərinə ehtiyaclarını tam şəkildə qarşılayan, onlara bankçılıq xidmətlərindən zamanından və məkanından asılı olmayaraq, rahatlıqla istifadə edə biləcəkləri imkanı yaradan, təkcə bank deyil, bütün maliyyə məsələləri üzrə dost qurum olaraq qalacağını bildirərək cənab Babaşlı çıxışını yekunlaşdırmışdır.

"AtaNet" mobil əlavəsi ənənəvi bankçılıqda mümkün bütün əməliyyatları yerinə yetirməyə imkan verən müasir mobil bankçılıq əlavəsidir. Əlavə olaraq qeyd edək ki, "AtaNet" mobil bankçılığı ilə yanaşı, "AtaNet" internet bankçılığı üzərində bir çox işlər aparılaraq, interfeysi daha da müasirləşdirilərək, 2. versiyası artıq müştərilərə təqdim olunub.

Ən əsası isə Bankın müştəriləri üçün "AtaNet"-ə qoşulma və istifadə tamamilə pulsuzdur.

"AtaNet" Mobil Bankçılıq sistemi vasitəsilə aşağıdakı əməliyyatların aparılması mümkündür:
- Cari hesablar, əmanət hesabları, kart hesabları və kredit hesabları haqqında məlumatların əldə edilməsi;
- Cari hesabların və əmanət hesablarının açılışı;
- Müştərinin öz hesabları arasında köçürmələr;
- Bankdaxili köçürmələr;
- Kartların bloklaşdırılması və blokdan çıxarılması;
- "SMS-xəbərdarlıq" xidmətinin aktiv və deaktiv edilməsi;
- Bank kartları, o cümlədən virtual kartların sifarişi;
- Ölkədaxili - AZİPS, XÖHKS köçürmələri;
- Ölkəxarici - SWIFT köçürmələri;
- Hökumət ödənişləri – büdcə, ƏDV və Vergi borclarının ödənişləri;
- Həm AtaBank-a, həm respublikadaxili digər banklara məxsus kartlara köçürmələr;
- Kommunal ödənişlər;
- Əməkhaqqı ödənişləri;
- Kredit ödənişləri;
- İpoteka ödənişləri;
- Konvertasiya əməliyyatları.

Həmçinin aşağıdakı məlumatlar




əldə edilə bilər:
- Bank haqqında məlumat;
- Filiallar və bankomatlar haqqında məlumat;
- Valyuta məzənnələri.

Bu xidmətlərin sayının davamlı şəkildə artırılması, mobil tətbiqə yeni funksiyaların əlavə edilməsi nəzərdə tutulur.




AQRARKREDİT
SƏHMDAR KREDİT TƏŞKİLATI

«Aqrarkredit» QSC
Bank olmayan Kredit Təşkilatı

Bütün Azərbaycan xalqını 28 May - Respublika günü münasibəti ilə təbrik edir, tariximizin bu şərəfli səhifəsinin gələcək nəsillərimizə də örnək olmasını diləyir, milli dövlətçiliyimizə inkişaf və tərəqqi, xalqımıza sülh və əmin-amanlıq arzulayırıq!




SCIP
Sumgait Chemical Industrial Park

Sumqayıt Kimya Sənaye Parkı MMC



# REKLAM BİZNESİ VƏ SAHİBKARLIĞIN İNKİŞAFININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ



Reklam biznesi hər hansı fəaliyyət sahəsində pərakəndə ticarətçilərə və distributorlara, eləcə də alıcı kimi sənaye müəssisələrinə və peşəkarlara istiqamətlənən xəbərləri ehtiva edən reklamdır.

Reklam biznesi internet marketinqin, reklamın və dizaynın terminidir.

İnformasiyaya olan tələbatlar, əlbəttə, reklamvericini əhatə etmək istəyən işgüzar bazarın tipindən asılıdır. Biznes sferası bazarın bir çox müxtəlif sektorlarını ehtiva edir ki, bunların da hər biri spesifik əmtəə və xidmətlərin satınalınması meylinə malikdir. Biznes reklamın müxtəlif növləri mövcuddur: sənaye, hökumət, ticarət, mütəxəssislər və kənd təsərrüfatı.

**Sənaye reklamı**. İMB və "General Motors" kimi avadanlıq istehsalçıları sənaye mallarını və xidmətləri alırlar ki, sonradan onlar ya son məhsulun bir hissəsi olur və ya biznesin idarə edilməsinə kömək edir. Buna görə də onların informasiya tələbatları konkret məmulatın əldə edilməsi məqsədlərindən asılıdır. Belə müəssisələrə sənaye reklamı ünvanlanmışdır. "Business Week", "Auto World" və "Fortuna" kimi nəşrlər sənaye reklamı məqsədi ilə istifadə oluna bilər (şəkil 1).




**Şəkil 1. İşgüzar bazarın və əldə olunan əmtəələrin çoxcəhətliliyi.**

Məsələn, əgər "General Motors" şirkəti "Good year" şirkətindən təkər şinləri alırsa, bu alqı nəticədə keyfiyyətli son məhsul yaratmağa imkan verəcək. "Good year" şirkəti öz təkər şinlərini yükləmək üçün qablaşma materiallarını əldə edən zaman informasiya tələbatları sürətli və etibarlı dərəcədə təmərküzləşir.

2. **Dövlət idarələri üçün reklam.** ABŞ-da sənaye mallarının ən iri alıcıları federal, yerli səviyyədə hökumətlər, ştatların hökumətləridir. Bu dövlət strukturları, praktiki olaraq, hər şeyi alırlar. Belə malları "Federal Computer Week", "Commerce Business Daily" və "Defense News" nəşrlərində reklam etmək olar. Maraqlıdır ki, bilavasitə dövlət agentliklərinə ünvanlanan reklam elanlarına nadir hallarda rast gəlmək mümkündür. Bu, onunla əlaqədardır ki, dövlət agentlikləri, adətən, potensial məhsul göndərənlərə sifarişləri qəbul etmək üçün reklamdan istifadə edirlər. Buna baxmayaraq, seçim zamanı məhsul göndərənin nüfuzu az rol oynamır. Bununla əlaqədar olaraq dövlət alıcıları hökumətin əldə etdiyi əmtəə və xidmətləri müəyyən edən, qanuniləşdirən, qiymətləndirən və qəbul edən çoxsaylı qruplar qarşısında məsuliyyət daşıyır. Dövlət səviyyəsində reklamın ən təsirli üsullarından biri korporativ imic reklamıdır. Ümumi maraqları birləşdirən belə qruplara konqresi, idarəetmə və büdcə nazirliyini, xarici orqanları, eləcə də İstehlakçılar İttifaqını göstərmək olar.

**3.Ticarət reklamı.** Ticarət reklamı istehlak bazarında vasitəçiləri, topdansatış və pərakəndə satış ticarətçilərini hər hansı bir istehsalçının əmtəələrinin ehtiyatını yaratmağa inandırır. Ticarət üçün nəşrlərə "Chain Store Age" , "Florists Review" və "Pizza, and Pasta"nı misal göstərmək olar. Bir halda ki, vasitəçilər əmtəələri son istehlakçılara təkrar satmaqdan ötrü əldə edirlər, onlar mənfəətin fərz olunan səviyyəsi, bu əmtəənin əsas satış yeri haqqında informasiya, eləcə də istehlak reklamı səviyyəsində və satışın irəliləyişi üzrə digər fəaliyyət sferasında istehsalçının nə etməsi haqqında məlumatlar almaq istəyirlər.

**4. Mütəxəssislər** üçün reklam. Mütəxəssislər üçün reklam "ağ yaxalıqlılar"a, yəni hüquqşünaslara, eləcə də mühasiblərə, menecment üzrə məsləhətçilərə, həkimlərə, müəllimlərə, dəfn mərasimindəki sərəncamçılara və marketinq tədqiqatlarına istiqamətlənmişdir. Mütəxəssislərin cəlb edilməsində maraqlı olan reklamvericilər "Music Educator Journal" və ya "Advertising Age" kimi nəşrlərdə öz reklam elanlarını yerləşdirilər. İnformasiya tələbatları həm reklamvericinin məhsulundan, həm də məqsədli auditoriyadan asılıdır.

**5. Kənd təsərrüfatı reklamı.** Kənd təsərrüfatı reklamında heyvanlar üçün dərman, toxum, kənd təsərrüfatı maşınları və avadanlığı, məhsulun qoruyucu vasitələri, gübrə kimi müxtəlif əmtəə və xidmətlər əks olunur. Həm iri, həm də kiçik fermerlər bilmək istəyirlər ki, sənaye malları kənd təsərrüfatı məhsulunun yetişdirilməsinə, yığımına və ya istehsalına necə kömək edə bilər. Kömək üçün onlar "California Fermer" və ya "Trees and Turf" kimi nəşrlərə müraciət edirlər.

**Cədvəl 1-də fəaliyyət sahələri üzrə müəssisələr arasında müxtəlif qarşılıqlı fəaliyyət kateqoriyaları göstərilmişdir.**

| | Milyon dollar | Qarşılıqlı marketinq fəaliyyətinin ümumi həcmindən, %-lə |
|---|---|---|
| Xidmətlər | 17,4321 | 59,5 |
| Topdansatış | 8,439 | 69,4 |
| Maliyyə, sığorta və daşınmaz əmlak | 6,329 | 48,9 |
| Kompüterlər – proqram təminatı | 3,309 | 56,8 |
| Sənaye avadanlığı (kompüterlərdən başqa) | 2,885 | 73,2 |
| Nəqliyyat | 2,808 | 73,9 |
| Elektron - elektrik avadanlığı | 1,717 | 76,5 |
| Kimyəvi preparatlar, yanaşı mallar | 1,590 | 56,3 |
| Ko.mpüterlər və aparat təminatı | 1,494 | 59,3 |
| Metallar | 1,456 | 59,5 |
| Alətlər, yanaşı mallar | 1,348 | 74,1 |
| Rezinlər | 809 | 71,6 |
| Mebel və furnitur | 732 | 67,7 |
| Kommunikasiyalar və kommunal xidmətlər | 518 | 20,9 |
| Qida məhsulları və içkilər | 496 | 39,2 |
| Tikinti | 382 | 54,7 |
| Çap və nəşr fəaliyyəti | 348 | 42,9 |
| Parça və geyim | 247 | 40,5 |
| Kompüterlər – xidmətlər | 190 | 91,4 |
| Ağac və meşə materialı | 180 | 71,4 |
| Kağız və yanaşı mallar | 133 | 48,7 |
| Dağ-mədən sənayesi | 131 | 32,3 |
| Kənd təsərrüfatı | 131 | 32,3 |
| Daş, gil, şüşə və beton | 94 | 70,8 |
| Benzin və kömür | 90 | 61,1 |
| Orta hesabla (müəssisə, bütün fəaliyyət sahələri) | 4,6 | 59,9 |

Kiçik və orta biznes üçün reklamın qaydaları aşağıdakılardır:

1. "Brend" reklamını aradan götürün.
2. Birbaşa çağırış marketinqi prinsipi üzrə reklam qurun.
3. Bir xəbər - bir ideya.
4. Əgər sizin bazar hər şeydirsə, onda sizin bazar heçnədir.
5. Mediada yox, öz bazarınızda təmərküzləşin.
6. İki addımlı reklamdan istifadə edin.
7. Mətn yazmayana qədər dizaynı unudun.
8. Əgər qazandığınızı reklam edirsinizsə, siz pis satıcısınız.
9. Reklam müraciətinə diqqəti cəlb etmək üçün güclü sərlövhədən istifadə edin.
10. "İrresistible offer"dən istifadə edin, ondan gələn təklifdən imtina etmək qeyri-mümkündür.
11. Məhdudiyyətlərdən istifadə edin.
12. "Birbaşa, indi" fəaliyyətinə çağırışdan istifadə edin.
13. Öz reklamınızı büdcələşmə səthindən investisiyalaşma səthinə yerləşdirin.
14. Məhsulunuzun xassələrini yox, faydasını satın.
15. Rəvayətdən istifadə edin.
16. Sahə KİV-indən pulsuz PR.
17. Zəmanət və ya zəmanətlər verin.
18. Ümumi "reklam hay-küyündən" ayrılın.
19. Özünüz haqqında yox, müştərinizi maraqlandıran məsələlər barəsində danışın.
20. Məntiqlə yox, emosiyalarla satın.
21. Kopiraytinqdən öyrənin, kopiraytinq satılan mətnlərin yazılması sənətidir.

Beləliklə, reklam biznesi istehlak sektorunda oxşar informasiya kimi satışın artmasına kömək edir. Kampaniyadan əldə olunan effekt seçilmiş vasitələrdən asılı olaraq müxtəlif ola bilər. Reklam biznesi çox zaman alqı haqqında qərar qəbul edən şəxslərə xəbərin çatdırılmasının yeganə üsuludur. Hazırda qlobal İnternet şəbəkəsində mövcud olan reklam biznesi ən səmərəli hesab olunur. Bu, reklamın ənənəvi növlərinə (televiziya, radio və s. yerləşən elanlara) nisbətən ucuzdur. Bu gün insanlar əsas informasiya mənbəyi kimi İnternetdən istifadə edir. O, alıcılarla satıcıların qarşılıqlı fəaliyyəti üçün böyük ticarət meydançası rolunu oynayır. İnternetsiz reklam biznesi qeyri-mümkündür.

**F.M.QARAYEV,**
**BDU-nun dosenti**

## Tbilisidə keçirilən konfransda Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətindən danışılıb



Gürcüstanın paytaxtında "Tbilisinin inkişafı iqtisadi mərkəz kimi" mövzusunda konfrans keçirilib.

Konfransda regionda həyata keçirilən layihələr, xüsusən də Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyəti qeyd olunub.

Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin nəqliyyat və logistika departamentinin rəis müavini David Cavaxadze Tbilisi, Kutaisi və ölkənin digər iri şəhərlərində yaradılan və yaradılması nəzərdə tutulan logistik mərkəzlər, avtovağzal, aeroport kompleksləri, habelə Anakli dəniz limanının tikintisi barədə məlumat verib.

Bildirib ki, Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi və bir sıra inkişaf etmiş ölkələrin Böyük İpək Yoluna qoşulması Gürcüstanda yol infrastrukturunun yenilənməsinə və logistik mərkəzlərin yaradılmasına təkan verib. İrimiqyaslı enerji, nəqliyyat layihələri Gürcüstanın inkişafında mühüm rol oynayır.

"Bakı-Tbilisi-Qars dəmir yoluna marağın artması, Çindən Avropaya qədər uzanan İpək Yolunun bərpası bizə yeni infrastruktur layihələrini həyata keçirməyə imkan verir. Biz qonşu ölkələrlə birgə yeni layihələr hazırlayırıq", - deyə D.Cavaxadze vurğulayıb.

Onun sözlərinə görə, Gürcüstan magistral yolların yenidən qurulması istiqamətində də mühüm işlər görür. Bunun üçün xarici investisiyalara ehtiyac var.

## "Şahdəniz" konsorsiumu: Bolqarıstan 2020-ci ildə Azərbaycan təbii qazını ala biləcək

Bu barədə Bolqarıstanın energetika naziri xanım Temenujka Petkovanın "Şahdəniz" konsorsiumunun nümayəndələri ilə görüşündə danışılıb.

Nazir son aylarda Azərbaycanın "Şahdəniz-2" yatağından hasil ediləcək təbii qazı Bolqarıstana çatdıracaq Yunanıstan-Bolqarıstan interkonnektoru (Interconnector Greece-Bulgaria (IGB) layihəsi üzrə işlərin intensivləşdiyini deyib: "Bu layihə hökumət üçün əsas prioritetdir".

"ICGB" şirkəti artıq İnnovasiya və rəqabətə əsaslanan əməliyyat proqramı çərçivəsində benefisiardır ki, bu da bizə layihə çərçivəsində 39 milyon avro məbləğində əlavə maliyyələşdirməni tətbiq etməyə imkan verir", - deyə o əlavə edib.

"Şahdəniz" konsorsiumunun nümayəndələri isə nazirə məlumat verib ki, "Şahdəniz-2" yatağından təbii qaz hasilatı üzrə işlər sürətlənir. Onlar əmin olduqlarını bildiriblər ki, 2020-ci ildə Bolqarıstan ilk Azərbaycan təbii qazını ala biləcək. Azərbaycan Bolqarıstanın regionda enerji təhlükəsizliyi sahəsində fəaliyyətini dəstəkləyir.

Qeyd edək ki, Bolqarıstan IGB interkonnektoru ilə 2020-ci ildən etibarən ildə 1 milyard kubmetr Azərbaycan qazı alacaq. Azərbaycan təbii qazı "Trans-Adriatik" (TAP) qaz boru kəməri ilə 2020-ci ildə Avropaya çatdırılacaq. Həmin qazı Bolqarıstana nəql edəcək IGB interkonnektoru isə 2019-cu ilin sonunda hazır olacaq. 2013-cü ilin sentyabrında "Bulgargaz EAD" "Şahdəniz-2" çərçivəsində ildə 1 milyard kubmetr qazın alışı ilə bağlı 25 illik saziş imzalayıb. Azərbaycan qazı Bolqarıstanın istehlakının dörddə birini ödəyəcək.

IGB qaz boru kəmərinin Şimal-Şərqi Yunanıstanın Komotini bölgəsində və Bolqarıstanın cənubundakı Stara Zagora bölgəsində çıxış nöqtəsi olacaq, Yunanıstan və Bolqarıstan milli təbii qaz sistemləri arasında birbaşa əlaqə yaradılacaq. 185 kilometrlik boru kəməri Yunanıstandan Bolqarıstana ildə təxminən 3 milyard kubmetr təbii qaz nəqli qabiliyyətinə malik olacaq və gələcək bazar tələbatına əsasən bu həcmin illik 5 milyard kubmetrə çatdırılması imkanı var.

## Qida Təhlükəsizliyi Agentliyi sahibkarlıq subyektlərində maarifləndirici monitorinqlərə başlayıb



Mayın 22-dən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) əhalinin sağlam və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi məqsədilə qida sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərində maarifləndirici monitorinqlərə başlayıb.

Agentliyin mətbuat xidmətindən bildirilib ki, cari ilin may və iyun aylarını əhatə edəcək monitorinqlər zamanı bu sahədə fəaliyyət, istehsal şəraiti və qida zəncirinin mərhələləri ilə yerində tanışlıq, sahibkarlara normativ texniki sənədlərin tələblərini izah etmək, habelə gələcəkdə həyata keçiriləcək qida təhlükəsizliyi qeydiyyatı, dövlət reyestrinin aparılması, sertifikatların verilməsi və digər bu kimi istiqamətlərdə maarifləndirmə işlərinin aparılması nəzərdə tutulur.

Monitorinqlərin ilk günündə AQTA nümayəndələri "Bakı Qida və Yağ Fabriki" MMC, "Sun-Tea Çay Fabriki" MMC və "AzMeat Production" MMC-də olub, istehsalçılara qida təhlükəsizliyi sahəsində dövlət siyasəti, qarşıya qoyulan tələblər haqqında məlumat veriblər. Monitorinq zamanı sahibkarlıq subyektlərinə məlumatverici təlimatlar təqdim olunub, müasir standartlara cavab verən, rəqabətə davamlı qida məhsulları istehsalının qarşıda duran əsas vəzifə olduğu vurğulanıb.




## 2018-ci ildə ilk dəfə olaraq Azərbaycana alıcı missiyaları təşkil olunacaq

MADE IN AZERBAIJAN

2018-ci ildən xarici ölkələrə daha çox ixrac missiyaları həyata keçiriləcək və ilk dəfə olaraq Azərbaycana alıcı missiyaları təşkil olunacaq, ixracla məşğul olan sahibkarlara daha çox dəstək göstəriləcək. Bu barədə İqtisadiyyat Nazirliyinin geniş kollegiya iclasında bildirilib.

Prezident İlham Əliyevin "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə dair Fərmanına uyğun olaraq, 2018-ci ilin ötən dövründə Azərbaycan şirkətləri dövlət büdcəsi hesabına "Beynəlxalq Yaşıl Həftə", "Prodexpo", "Fruit Logistica", "Gulfood" və "Sial China" beynəlxalq ərzaq sərgilərində vahid ölkə stendi ilə iştirak ediblər. Ümumilikdə, indiyədək 13 ixrac missiyası (Çin, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya, Əfqanıstan, Pakistan, Qətər, Qazaxıstan, Macarıstan, Rusiya, Səudiyyə Ərəbistanı) təşkil olunub.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 yanvar tarixli Fərmanı ilə ixracın dəstəklənməsi mexanizmlərinin və stimullaşdırıcı tədbirlərin əhatə dairəsi daha da genişləndirilib. Fərmana uyğun olaraq, 2018-ci ildən xarici ölkələrə daha çox ixrac missiyaları həyata keçiriləcək və ilk dəfə olaraq Azərbaycana alıcı missiyaları təşkil olunacaq, ixracla məşğul olan sahibkarlara daha çox dəstək göstəriləcək.







TuranBank
...Bizimlə etibarlıdır

### ETİBARSIZDIR

Qasımova Sona Qulam qızının adına Yasamal rayonu, S.Tağızadə küçəsi, ev 56 ünvanına verilmiş ÖM 032557 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılsın.

Məmmədov Əlipaşa Paşa oğlunun adına Türkan qəsəbəsində 214 saylı bağ sahəsinin qeydiyyat çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılsın.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə professor Afət Əhmədova əzizi
**ƏHMƏDOVA SVETLANA QURBAN QIZININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə professor Afət Əhmədova əzizi
**ƏHMƏDOVA SVETLANA QURBAN QIZININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Bəyalı Ataşov və professor Rəsul Balayev professor Afət Əhmədova əzizi
**ƏHMƏDOVA SVETLANA QURBAN QIZININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500